# CÜMƏ NAMAZI VƏ CÜMƏ GÜNÜNÜN ƏMƏLLƏRİ

*“Ey iman gətirənlər, cümə günü namaza çağırılan zaman, Allahı zikr etməyə (cümə namazına) tələsin və alış-verişi buraxın! Əgər bilsəniz bu, sizin üçün daha xeyirlidir”. (“Cümə” 9).*

*Bir nəfər Həzrət Peyğəmbərin (s) yanına gəlir və deyir: “Ya Rəsulallah! Mən dəfələrlə həccə hazırlaşmışam, ancaq bu tövfiq mənə nəsib olmayıbdır”. Həzrət (s) buyurur:“Cümə namazı – yoxsulların həccidir”.*

*Cümə namazı hər şeydən əvvəl camaatla bir yerdə qılınan namazdır. İbadət insanın ruh və canını lətif edər, ürəyini günahlardan yuyar və qəlbində olan pası təmizləyər. Cümə namazı həcc əməlindən sonra böyük cəmiyyətlə yerinə yetirilən bir ibadətdir. Bu ibadətin çoxlu faydaları vardır.*

*Cümə namazından əvvəl xətib dünyada və ölkədə olan dini, ictimai, iqtisadi məsələləri insanların nəzərinə çatdırır və cəmiyyəti məlumatlandırır.*

*Bundan əlavə, insanları İslam maarifi ilə maarifləndirir. İnsanlar arasında vəhdət və həmrəylik yaranır. Ümumi çətinlikləri həll etmək üçün insanların rəyinə dəyər verilir. Ona görə də dinimiz həmişə cümə namazına xüsusi əhəmiyyət vermişdir.*

## Cümə Günü Edilən Əməllər

**1**

### Təmizliyə diqqət yetirmək:

-çimmək
-gözəl geyinmək
-dırnaqları kəsmək
-ətirlənmək
-misvak istifadə etmək

**2**

### Cümə namazı qılmaq

Uca Allah buyurur: “Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir”. (əl-Cumuə:9)

**3**

### Kəhf surəsi oxunmaq

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurub: "Kim cümə günü Kəhf surəsini oxuyarsa onun üçün iki cümə arasında bir nur olar" (Hakim, Şeyx Albani səhihləşdirmişdir, "İrvaul Ğalil", 626)

**4**

### Salavat oxumaq

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurur: “Hər kim mənə bir salavat deyərsə, Allah o kimsəyə on salavat deyər." (Muslim)

**5**

### Dua etmək:

Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) buyurur: “Cümə günündə elə bir saat var ki, hər hansı müsəlman qul namazda həmin saatda Allahdan bir şey istəyərsə, şübhəsiz, Allah ona istədiyini verər." Əli ilə işarə edərək saatın qısa bir vaxt olduğunu göstərdi”. (Muslim, 852).

# BU AYIN DUALARINI QƏNİMƏT BİLMƏK LAZIMDIR...

## Ayətullah Xamenei: Rəcəb ayının duaları mərifət ümmanıdır

***Rəcəb ayı ilahi rəhmət və bərəkət ayıdır. Böyük İslam Peyğəmbərindən belə nəql olunur:***

***“Allah-Taala, rəcəb və şaban aylarında bizə xeyir-bərəkət nazil et!” (“Məfatihul-cinan”, rəcəb ayının əvvəlinə aid olan əməllər)***

Rəcəb və şəban ayları möminləri ilahi ziyafət ayına – mübarək Ramazan ayına doğru aparan keçiddir. Artıq rəcəb ayı yaxınlaşmaqdadır və mərifət ümmanı olan bu ayın dualarını qənimət bilmək lazımdır. Rəcəb ayının olduqca dəyərli və qənimət sayıla biləcək günləri, zikr, dua və Allah-Taalaya diqqət yönəltmək vaxtıdır. Rəcəb ayının duaları mərifət ümmanıdır. Dua yalnız insanın öz qəlbini Allaha yaxınlaşdırmasından ibarət deyil. Əlbəttə, duada bu da var; duada öyrənmək və mənimsəmək də var; duada həm təlim, həm də ruhun saflaşdırılması var. Dualar – məsumlardan (ə) nəql olunan təsirli dualar həm zehni aydınlaşdırır, həm bizə həyatda ehtiyac duyduğumuz müəyyən həqiqət və bilikləri öyrədir, həm də qəlblərimizin diqqətini Allaha doğru yönəldir.

Qafil ürək, şeytanın hücumlarına məruz qalır. Şeytan insanın ruhuna hakim olsa dünyada şər və fəsad meydana gələr. Aləmdəki hər cür şər və fəsadla mübarizə etmənin doğru yolu Allahla əlaqə yaratmaq və şeytanın nüfuzundan ruhu toxunulmaz etməkdir. Bəşərin bütün səfalət və çətinliklərinin qaynağı Allahdan uzaq olmağındadır.

Bu səbəbdən İslamda uca Allahla əlaqə yaratmaq üçün xüsusi fürsətlər müəyyən edilmişdir. Bu fürsətlərdən biri də “Rəcəb” ayıdır.

Rəcəb ayının qədrini bilin. Bu ay üçün zikr edilən duaların hamısı dərsdir. Əgər müsəlman bir insan Rəcəb ayında və daha sonra Şaban ayında uca Allahla olan əlaqəsini möhkəmləndirib və daha yaxın etsə, Ramazan ayına hazırlıqlı girmiş olar. O zaman Ramazan ayı “İlahi ziyafət” olar. İnsan hazır olmalı və daha sonra ziyafətə girməlidir. “Əvvəl təmizlən…”

İnsan, bu təmizliyi Rəcəb və Şaban ayında etməlidir ki Ramazan ayında ilahi süfrənin başında otura bilsin. Və o süfrədən nemət əldə edərək feyzlənə bilsin. Əgər Ramazan ayından feyz alsaq, o zaman əməlimiz, əxlaqımızda,ruhumuzun aramlığında irəliləyişlər baş verər. Bizlər bu imtahanları yerinə yetirmədiyimizə görə problemli nəticəni öz bədənimizdə və cəmiyyətimizdə görmək məcburiyyətində oluruq.

Ayətullah Seyyid Əli Xamenei

**Mübarək Rəcəb ayının gündəlik duası (oxunuş)**

Ya mən ərcuhu likulli xayr, və amənu səxətəhu ində kulli şərr, ya mən yutil kəsirə bil-qəlil, ya mən yuti mən səələh, ya mən yuti məl-ləm yəsəlhu, və məl-ləm yərifhu təhənnunən minhu və rahməh, ətini biməsələti iyyak, cəmiə xayrid-dunya və cəmiə xayril-axirah, vəsrif ənni biməsələti iyyak, cəmiə şərrid-dunya və şərril-axirəh, fəinnəhu ğəyru mənqusin ma ətəyt, və zidni min fəzlikə ya kərim! Ya zəl-cəlali vəl-ikram, ya zən-nəmai vəl-cud, ya zəl-mənni vət-təvl, hərrim şəybəti ələn-nar.

**Mübarək Rəcəb ayının gündəlik duası (tərcümə)**

Ey bütün xeyir işlərdə ümid bəslədiyim! Bütün şər işlərdə Öz qəzəbindən Özünə sığındığım! Ey az müqabilində çox əta edən! Ey istəyənlərə əta edən! Ey Onu tanımayanlara və Ondan istəməyənlərə lütf və mərhəmət səbəbindən əta edən! Səndən bütün dünya və axirət xeyrini istəyən bəndənə əta et. İstəyimə görə məndən dünya və axirət şərini tamamilə uzaqlaşdır! Həqiqətən, Sənin əta etdiyin nöqsansızdır. Öz fəzl və kərəmindən mənə əta et, ey Kərim! Ey calal və böyüklük sahibi! Ey nemətlər və səxavət sahibi! Ey əta və kərəm sahibi! Saqqalımı (üzümü) cəhənnəm oduna haram et!

# RƏCƏB AYI - CƏNNƏTƏ AÇILAN BİR QAPI




## RƏCƏB AYINDA BAŞ VERƏN HADİSƏLƏR

Bütün zamanlar aləmlərin Rəbbi olan Allah tərəfindən yaransa, ilin bütün ayları Onun qüdrət nişanəsi olsa da, Rəcəb, Şaban və Ramazan ayları xüsusi imtiyaz və fəzilətlərə sahibdir. Hətta cahillik dövrünün insanları belə Rəcəb ayını ehtiramla qeyd edirmişlər.

Rəcəb ayının fəziləti ilə bağlı nəql olunan hədislərin də sayı az deyildir və biz burada həmin hədislərdən bir neçəsini qeyd etməklə kifayətlənirik. İslam Peyğəmbərindən (s) Rəcəb ayının fəziləti ilə bağlı belə nəql olunur: "Rəcəb ayı çox böyük aydır... Hər kəs bu ayda bir gün oruc tutsa, Allahın razılığını qazanar, Onun qəzəbindən amanda olar və cəhənnəm qapıları onun üzünə bağlanar."

İmam Kazimdən (ə) də belə nəql olunur: "Hər kəs Rəcəb ayının bir gününü oruc tutsa, cəhənnəm odu bir il ondan uzaq düşər. Hər kəs üç gününü oruc tutsa, cənnət ona vacib olar."

O həzrət başqa bir hədisdə belə buyurur: "Rəcəb – cənnətdə süddən ağ və baldan şirin bulağın adıdır ki, Rəcəb ayında bir gün oruc tutan şəxs mütləq həmin bulaqdan dadacaq." ("İqbalul-əmal", səh.635.)

İmam Sadiqdən (ə) İslam Peyğəmbərinin (s) belə buyurduğu nəql olunur: "Rəcəb ayı ümmətimin "istiğfar" ayıdır. Bu ayda çoxlu istiğfar edin (və Allahdan bağışlanmağınızı diləyin) ki, Allah bağışlayan və mehribandır. Bu aya "Əsəbb" (çox tökülən) deyilir, çünki bu ayda Allahın geniş rəhməti mənim ümmətimə nazil olar. Elə isə çoxlu deyin: "Əstəğfirullahə və əs`əluhut-tovbə!"

İbn Babəveyh mötəbər silsilə sənədlərlə Salimdən belə nəql edir: "Rəcəb ayının sonuna bir neçə gün qalmış imam Sadiqin (ə) hüzuruna getdim. Həzrət məni görcək buyurdu: "Heç bu ayda oruc tutubsan?" Dedim: "Xeyr, ey Peyğəmbər övladı!" Buyurdu: "Sənin nə qədər savabı əldən verdiyini yalnız Allah bilir... Allah-Taala bu ayda oruc tutan şəxsi əzizləməyi Özünə vacib bilib." Sonra soruşdum: "Ey Peyğəmbər övladı, əgər ayın qalan hissəsini oruc tutsam, oruc tutanların savabını qazanarammı?" Buyurdu: "Ey Salim! Kim bu ayın sonuncu gününü oruc tutsa, Allah onu "ölümün çətinlikləri", ölümdən sonrakı qorxulu hadisələr və "qəbir əzabı"ndan qoruyar. Kim son iki gününü oruc tutsa, "Sirat" körpüsündən asanlıqla keçər. Kim son üç gününü oruc tutsa, böyük "Qiyamət" gününün qorxu və şiddətindən amanda olar və cəhənnəm əzabından qurtuluş vərəqini qazanar."

İmam Sadiq (ə) bir hədisdə Rəcəb ayının kəramət və fəziləti ilə əlaqədar buyurur: "Qiyamət günü ilahi carçı fəryad edib deyər: «أين الرجبيّون؟» (Əynər-rəcəbiyyun?) "Rəcəb əhli (Rəcəb ayını əziz tutan və ondan layiqincə bəhrələnənlər) haradadır?" O qədər cəmiyyətin içindən bir zümrə ayağa qalxdıqda, çöhrələrinin nuru məhşər səhrasını işıqlandırar. Onların başına "dürr və yaqut" tacı qoyular, hər birinin sağ tərəfində min mələk, sol tərəfində də min mələk duraraq, Allah tərəfindən kəramətə sahib olduqları üçün təbrikə layiq görülərlər. Allah-Taala tərəfindən bir nida gələr: "Mənim bəndələrim və kənizlərim! İzzət və cəlalıma and olsun ki, sizə uca məqam, çoxlu ətalar verəcək, sizi altından çaylar axan bir yerdə məskunlaşdıracağam və siz orada əbədi olaraq qalacaqsınız. Çünki siz mənim möhtərəm qərar verdiyim bir ayda könüllü olaraq oruc tutdunuz." Sonra mələklərə xitabən buyurar: "Ey Mənim mələklərim! Bəndə və kənizlərimi behiştə daxil et...!" Burada imam Sadiq (ə) buyurdu: "Bu savab Rəcəb ayının əvvəli, ya ortası, ya da axırında oruc tutan şəxsə əta olunacaqdır! ("İqbal", səh.630.)

Deməк, bu rəvayətlərə əsasən, Rəcəb ayında oruc tutmağın fəzilət və savabı olduqca çoxdur. Rəvayətdə deyilir ki, hər kim Rəcəb ayında oruc tutmağa qadir olmasa, bu zikri yüz dəfə oxusa, Rəcəb ayının orucunun savabına nail olar:

"Subhanəl ilahil cəlil. Subhanə mən-la yənbəğit-təsbihu illa ləhu. Subhanəl əəzzil əkrəm. Subhanə mən ləbisəl izzə və huvə ləhu əhl."

Tərcümə: "Böyük Allah bütün eyiblərdən pak və uzaqdır. Bütün eyiblərdən pak və uzaqdır o Allah ki, təsbeh və zikr Ondan başqasına layiq deyil. Əziz və kərim Allah bütün eyiblərdən pak və uzaqdır. İzzət libasına məxsus və izzət sahibi olan Allah bütün eyiblərdən pak və uzaqdır."

Qeyd etmək lazımdır ki, Rəcəb ayının özəlliyi bu aya aya təsadüf edən əlamətdar günlərə görə deyil. Lakin onun fəzilət və özəlliyi ilə yanaşı, həmin ayda bir sıra hadisələr də baş vermişdir:

a) Rəcəb ayının 1-ci günü imam Muhəmməd Baqirin (ə) mövludu;

b) Rəcəb ayının 3-cü günü imam Əliyyən-Nəqinin (ə) şəhadəti;

c) Rəcəb ayının 10-cu günü imam Muhəmməd Təqinin (ə) və imam Hüseynin (ə) oğlu həzrət Əliəsğərin (ə) mövludu;

ç) Rəcəb ayının 13-cü günü imam Əmirəlmöminin Əlinin (ə) mövludu;

d) Rəcəb ayının 15-ci günü xanım Zeynəbin (s.ə.) vəfatı və müsəlmanların qibləsinin Beytül-Müqəddəsdən Kəbəyə çevrildiyi gün;

e) Rəcəb ayının 18-ci günü İslam Peyğəmbərinin (s) oğlu İbrahimin vəfatı;

ə) Rəcəb ayının 25-ci günü imam Kazimin (ə) şəhadəti;

f) Rəcəb ayının 26-cı günü imam Əlinin (ə) atası həzrət Əbu Talibin vəfatı;

g) Rəcəb ayının 27-ci günü İslam Peyğəmbərinin (s) peyğəmbərliyə seçildiyi gün – "Məbəs" bayramı;

ğ) Rəcəb ayının 28-ci günü imam Hüseynin (ə) (60-cı hicri-qəməri ilində) Mədinədən Məkkəyə doğru hərəkət etdiyi gün;

Bir sözlə, Rəcəb ayı ilahi övliyaların bayramı, Allahla razniyazın baharı və "istiğfar" ayıdır. İslam Peyğəmbəri (s) və haqq canişinləri Rəcəb, Şaban və Ramazan aylarını ibadət, münacat, raz-niyaz və orucla keçirərdilər. Allahın saleh bəndələri də mübarək Ramazan ayına hazırlıq məqsədilə Rəcəb və Şaban aylarından layiqincə bəhrələnirlər!

Rza Şükürlü

# QURANI DÜZGÜN BAŞA DÜŞMƏYİN YOLLARI

***Qurani-kərim Allah tərəfindən insanlara göndərilən sonuncu kitabdır. Məhz bu kitabın vasitəsi ilə həm dünya, həm də axirət xoşbəxtliyinə nail ola bilərik. Tarix boyu Quranın ayələrini oxuyub, öz yaşayışlarını yaxşıya doğru dəyişən insanların sayı heç də az olmayıb. Hətta bəzən müsəlman olmayan məşhur, eləcə də sadə insanlar, Quranı mütaliə edib, onun dərin mənalarına diqqət etməklə, islam dinini qəbul etmişlər.***



Həzrət Əli (ə) Quran ayələrinin mənası haqqında belə buyurur: “Quranın zahiri heyrətləndirici və gözəl, batini isə dərin mənalıdır”.

Təəssüflər olsun ki, elə insanlar da var ki, Quranın ayələrini oxuyur, amma onun həqiqi mənasını dərk etmədikləri üçün, həqiqətdən uzaq düşürlər.

Quran ayələrini düz başa düşməyən və yanlış mənada açıqlayan insanları iki dəstəyə bölmək olar.

Bəzi insanlar islam dininə qarşı düşmənçilik etdikləri üçün, Quranın bəzi ayələrinin zahiri mənasını götürüb, onu öz çirkin məqsədləri üçün istifadə edir və bu yol ilə islama ləkə gətirmək istəyirlər. Misal üçün Allah-taala Muhəmməd surəsinin 4-cü ayəsində belə buyurur: “Kafirlərlə qarşılaşdığınız zaman boyunlarını vurun”.

Bəziləri isə, İslam dini ilə düşmən deyil, əksinə islamı İlahi bir din kimi qəbul edir, amma bəzi ayələrin zahiri mənasını rəhbər tutaraq, onun həqiqi mənasından uzaq düşürlər.

Birinci dəstə insanlara, Quran ayələrinin mənası haqqında hər hansı bir reallığı sübut etməyin bir mənası yoxdur. Çünki onların niyyəti bəllidir və iddilararının yanlış olduğuna dair hər nə qədər də dəlil gətirilsə, yenə də öz inadkar düşüncələrindən əl çəkən deyillər.

Quran ayələrini düzgün başa düşmək üçün, islam dini ilə düşmənçiliyi olmayan və islamı sonuncu İlahi din kimi qəbul edən insanlara isə aşağıda qeyd olunan qaydalara riayət etməyi tövsiyə etmək olar.

Belə ki, əgər Quran ayələrini düzgün başa düşmək istəsək, ayələri oxuduğumuz zaman, aşağıda qeyd olunan iki mühüm nöqtəyə diqqət yetirib, həmin iki qaydaya riayət etməliyik.

**1- Davamlı şəkildə günah etməmək və ayələri oxuyan zaman, onun kəlmələrinin anlamına diqqət edib, haqqında düşünmək**

Quranı oxuduğumuz zaman, kəlmələrin mənasına diqqət edib, onun haqqında düşünmək, ayələrin həqiqi mənasını dərk etməkdə bizə yardım edər. Misal üçün əgər cəhənnəm əzabı haqqında hər hansı bir ayəyə rast gəlsək, onun mənaları haqqında düşünüb, daxilimizdə Allahdan günahlarımız üçün bağışlanmaq tələb etməliyik.

Allah bu barədə buyurur: “Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur? (Yoxsa ürəklərinin öz kilidləri vardır?)”. (Muhəmməd surəsi, ayə 24).

Digər bir ayədə isə belə buyur: Xeyr (belə deyildir). Əslində onların qəlblərini qazandıqları (günahlar) qaplamışdır. ( Mutəffifin surəsi, ayə 14).

Yuxarıda qeyd olunan iki ayədən belə nəticə almaq olar ki, Quranın ayələrini oxuyarkən, onun mənasına diqqət yetimək lazımdır.

Həmçinin bunu da unutmamalıyıq ki, dünyaya bağlılıq, Allahdan qafil olmaq və davamlı şəkildə günah edib, tövbə etməmək, insanın qəlbinə möhür vurar və Quran nurunun qəlbə nüfuz etməsinin qarşısını alar.

Mütəal Allah bu barədə buyurur: Sonra, pis əmələ düçar olanların sonu o həddə çatdı ki, Allahın ayələrini yalanlayıb, onu lağa qoydular. (Rum surəsi, ayə 10).

Ona görə də ayələrin anlamını daha yaxşı başa düşmək üçün, gərək həm günahdan uzaq olaq, eyni zamanda da Quranı oxuyarkən, onun kəlmələrinin mənasına diqqət yetirək.

**2- Quran ayələrinin müxtəlif xüsusiyyətləri ilə tanış olmaq**

Bildiyimiz kimi Quran 23 il ərzində nazil olub. Quranda 114 surə var və hər bir surədə müəyyən ayələr mövcuddur. Bu ayələr, şəriət, ailə, cihad, əxlaq, əqaid və bu kimi müxtəlif mövzular barədə nazil olub. Eyni zamanda da, ayələrin “Şənu-Nuzul, Muhkəm və Mutəşabih,

Nasix və Mənsux" və bunlar kimi özünə məxsus bəzi xüsusiyyətləri var. Əgər insan həmin xüsusiyyətlər ilə tanış olmasa, özü də bilmədən, Quranı yanlış başa düşər. Şənu-Nuzul dedikdə, ayənin hər hansı bir şəxs haqqında və ya baş vermiş müəyyən hadisə barədə nazil olması nəzərdə tutulur. Yəni ayələrin bəzisi, müəyyən hadisənin baş verməsinin ardınca və həmin hadisə ilə əlaqədar nazil olub. Ayəni oxuyub, həmin hadisədən xəbərsiz olan şəxs, onun həqiqi məna və fəlsəfəsindən uzaq düşə bilər.

Muhkəm və Mutəşabih ayələri haqqında da mütaliə etməliyik. "Muhkəm" o ayələrə deyilir ki, onun zahiri mənasını oxuyanda, elə əsl mənası başa düşülür. Misal üçün " De ki, Allah təkdir". (İxlas surəsi,ayə 1).

Bu ayəni oxuyan hər bir kəs, Allahın tək olduğunu başa düşür. Bu ayələrə, Muhkəm ayələr deyilir.

Zahiri mənası ilə, həqiqi mənası eyni olmayan ayələrə isə, "Mutəşabih" ayələri deyilir. Misal üçün Nur surəsinin 35-ci ayəsində, Allah-taala buyurur: "Allah göylərin və yerin nurudur".

Bu ayəni oxuyan şəxs, elə güman edə bilər ki, Allah nur və işıqdır. Halbuki, bu heçdə belə deyil.

Bunları nəzərə alaraq deyə bilərik ki, Quranı düzgün başa düşməyin ikinci yolu, ayələrin xüsusiyyətləri ilə tanış olmaq və alimlər tərəfindən yazılmış təfsir (açıqlama) kitablarını mütaliə etməkdir.

Hacı Elçin Əliyev

# İTİRDİKLƏRİMİZİ YENİDƏN QAZANMAQ ÜÇÜN ƏN GÖZƏL ZAMAN

***Allaha həmd olsun ki, bizlərə yaşamaq nemətini nəsib edib. Allahdan istəyimiz budur ki, bizlərə bu neməti doğru-dürüst istifadəni nəsib etsin!***

**Hər dönəmin öz məsuliyyəti**

***Allahın inayəti ilə yeni bir mənəvi bəhsə keçirik. Biz dünyaya gəlirik, həyatımızın müxtəlif yaş dövrlərində, vaxtlarında, zamanlarında fərqli-fərqli məsuliyyətlərimiz olur. Deyə bilərik ki, insanın müxtəlif zamanlarda müxtəlif rolları, məsuliyyətləri, həyatının hər mərhələsinə uyğun üzərinə düşən vəzifələri var.***

***Uşaq vaxtının - öz, yeniyetmə vaxtının - öz, cavanlıq vaxtının - öz, orta yaşın - öz məsuliyyətləri var. İnsan bu dünyadan gedənə qədər yaşadığı hər müddətin, hər zamanın öz məsuliyyətləri var. Hətta ilin içərisində olan fəsillərə görə də məsuliyyətlərimiz fərqlənir. Yayda bir cür, qışda bir cür, payızda bir güc, baharda bir cür məsuliyyətlərimiz var.***

***İndi artıq baharın təravəti hiss olunmaqdadır. Necə ki, baharda təbiət yenilənir, bizim hallarımız, durumlarımız da gərək yenilənsin, inşəallah.***

***Bu, bir gerçəklikdir ki, insan müxtəlif zamanlarda fərqli mükəlləfiyyət və məsuliyyətlərə malik olur. İnsanın hər dönəm üçün Allah qatında müxtəlif öhdəlikləri var. Sözsüz ki, bizim dünyaya gələndən dünyadan gedən ana qədər Allah qatında bir ümumi məsuliyyətimiz var. Bu, Allaha bəndə olmaq məsuliyyətidir. Amma, bu ümumi məsuliyyətin təzahürləri, rəngləri, bölümləri yaşımıza görə, zamana görə, vaxta görə, hətta həftənin günlərinə görə fərqlənir. Cümə gününün öz məsuliyyətləri, həftənin digər günlərinin öz məsuliyyətləri var.***

***Əminliklə deyə bilərik ki, bizim həyatımızda zamana görə fərqli-fərqli məsuliyyətlərimiz var.***



**Zamanlar riyazi anlamda identik olsa da, imkanlarına görə fərqlidir**

İkinci mühüm nöqtə budur ki, zamanın da özünün öz potensialı, öz keyfiyyət baxımından fərqliliyi var. Kəmiyyət anlamında gün - elə gündür, saat - elə saatdır. Riyazi anlamda biz deyə bilərik ki, müəyyən bir saat və digər bir saat eynidir - 60 dəqiqə və 3600 saniyədir.

Ayrıca baxdığımız bu bir saatın da içərisində altmış dəqiqə var, növbəti bir saatın da içərisində altmış dəqiqə var və bütün dəqiqələrin də eyni saniyələri var. Kəmiyyət baxımından zamanın eyniliyi mövcuddur. Amma, həmin eyni olan saatlar, günlər, həftələr, aylar fərqlənir. Deməli, insanın müxtəlif zamanlarda fərqli məsuliyyətləri olduğu kimi, zamanın da insan həyatında riyazi baxımından eyniliyi olsa da, özünün içərisində müəyyən fərqliliyi var.

Misal üçün səhərin, günortanın, axşamın, mövsümün, mənəvi təqvimlərin keyfiyyət baxımından fərqləri var. Həm biz müxtəlif zamanlarda müxtəlif məsuliyyətlərə malikik, həm də zamanın da özünün insanın istedadlarının üzə çıxması baxımından fərqliliyi var. Misal üçün, sübh vaxtının keyfiyyəti, imkanları daha fərqlidir.



## Əldən verdiyimiz zamanı necə geri qaytaraq?

Üçüncü nöqtə budur ki, əgər insan əldən verdiyi bir gününü, bir həftəsini, bir ayını, bir ilini, bir neçə ilini geri qaytarmaq istəsə, nə etməlidir? Bir var ki, insanın bir saatı zay olub. Fikirləşir ki, mən bu bir saatı necə zay etmişəm və necə geri qaytarım? Bir də var ki, insan bir gün ayılır ki, həyatının böyük hissəsi başdan-başa zay olub.

Bir haşiyə çıxım. Dərslərin birində bir sual qoymuşduq ki, öz kimliyiniz haqqında nə vaxtdan düşünmüsünüz? Çoxlu cavablar gəldi. Bir nəfər də yazdı ki, "Mən utandım bu sualdan, cünki mən bu sual barədə qırxa yaxın bir yaşda ilk dəfə düşünmüşəm".

Adam ola bilər ki, əlli yaşındadır, amma heç bir zaman bu barədə düşünməyib. Bəzən ola bilər ki, insan altmış, yetmiş, səksən il yaşayıb, amma kim olduğu, nə üçün yaradıldığı üzərində bir dəfə də olsun, düşünməyib.

Bir var biz bir saatımızı, bir neçə saatımızı zay etmişik, bir də var ki, bir ömrümüz büsbütün zay olub. İndi biz istəyirik ki, o itirdiyimiz, hədərə gedən vaxtımızı və zamanımızı bərpa edək.

Sanki bir yoldur, bizi hədəfə aparır. Biz o yolda bir saatlıq məsafəni səhv getmişik, fərqli tərəfə gəlib çıxmışıq. İndi o səhv getdiyimiz yolu qayıtmaq istəyirik. Aydın havada, günəşli havada daha tez qayıdarıq, qaranlıq havada daha çətin olar. Yer yağış olmayanda, gün olanda daha tez gələ bilərik. Amma yağışlı havada, qarlı havada nə qədər çətin olar?!

Piyada gedərək, daha çətin qət edərik o məsafəni, amma müəyyən nəqliyyat vasitəsilə daha tez çatarıq. Nəqliyyatın da, havanın da, şəraitin də, fiziki durumun da səhv getdiyimiz yoldan yenidən doğru magistrala qayıtmağımızın müddətinə bilavasitə təsiri var. Ola bilər ki, tez qayıda bilək, ola bilər ki, gec qayıda bilək.

Amma elə də ola bilər ki, heç səhv getdiyimizdən xəbərdar olmayaq. Elə bilərik ki, həyat elə budur, bir gün sağa dönəcəksən, bir gün sola dönəcəksən...

Deməli, bir məsələ budur ki, biz yaşadığımız zamanlara görə Allah qatında fərqli məsuliyyətlərə malikik.

İkincisi budur ki, zamanın da özünün imkan və istedadları keyfiyyət baxımından fərqlənir.

Üçüncüsü budur ki, biz neçə ayımızı, ilimizi əldən vermişik, zay etmişik. İndi istəyirik qayıdaq - necə qayıda bilərik?

## Geri dönüşün üç vasitəsi

Əxlaq mütəxəssisləri buyurur ki, qayıtmanın ən azı üç yolu var. Bu üç yol, üç vasitədən istifadə oluna bilər.

Birincisi budur ki, zamanın bətnindən istifadə edək. Zamanın imkanından istifadə edək.

İkincisi budur ki, məkanın bətnindən istifadə edək. Məkanın imkanından, potensialından istifadə edək.

Üçüncüsü budur ki, mühitin, müəllimin, moizənin potensialından, bətnindən istifadə edək.

Ümumən bətnin xüsusiyyəti nədir? Bətn deyilən şeyin xüsusiyyəti budur ki, bil-qüvvə, böyük potensialı olan bir varlığın ən zəif durumunda onu qəbul edir və müəyyən müddətə onu kamil hala gətirir. Yekunda həmin qəbul etdiyi zəif varlığı, kamil formada bətndən xaric edir və dünyaya təhvil verir.

Ana bətni nümunəsi - bunun ən bariz nümunəsidir. Biz görürük ki, rüşeym ən zəif vəziyyətdə gəlir, bəlli bir müddətdə ən kamil hala düşür, ondan sonra dünyaya təhvil verilir.

Bu baxımdan, zamanın özü bir bətndir. Zamanın özündə təkamül imkanları var. Necə ana bətnində insan ən zəif vəziyyətdən ən kamil vəziyyətə gəlir - zamanlar da analoji xasiyyətlərə, keyfiyyətlərə malikdir. Bəlli bir zamanlar var ki, o bəlli zamandan əgər doğru-dürüst istifadə olunsa, ən zəif vəziyyətdən ən kamil hala keçmək mümkün olar, insanın yeni bir mərhələsi başlaya bilər.

Məkanlarla da bağlı bu cürdür. Mühitlər də o cürdür. Bir gözəl mühit - öz-özlüyündə bir bətndir. Ən avara, yolunu çoxdan azmış insan, gözəl mühitdə gəlib ən ali dərəcəyə qədər ucala, yetişə bilər, təkamül keçə bilər.

İnsan yanlış getmişdirsə, üç vasitə ilə dönüb yoluna qayıda bilər. Zaman bətnindən, məkan bətnindən və mühit bətnindən istifadə etməklə yoluna qayıda bilər.

Bətnin xüsusiyyəti budur ki, istedadlı varlığı ən zəif, ən aciz halında, vəziyyətində qəbul edir, bəlli bir şəraitdə təkamül keçirdir, ondan sonra ən ali vəziyyətə çatdırır. Bununla missiya yekunlaşır və dünyaya təhvil verilmə baş verir.

Ana bətnində bir rüşeym təkamül keçərək, öz mənasında kamil insan vəziyyətini alır və bir bətndən növbəti bətnə keçid edir. Ana bətnindən dünyaya gəlib, dünya bətninə daxil olur.

Bu cür də dünya bətnində hərənin bir müddəti, zamanı var. Bu dünya bətnində biz daha növbəti bir yaşayış yerimiz üçün hazırlaşırıq. Necə ki, bu dünya bətni ana bətninə görə daha kamildir, daha üstündür, eləcə də axirət dünyası bu dünyadan daha üstün, daha keyfiyyətlidir.

Amma oraya keçid etmək üçün bu dünyanı yaşamaq, bu dünyada təkamülü keçmək lazımdır.

Biz deyə bilərik ki, hazırda biz ikinci bətndəyik.

Hacı İlqar İbrahimoğlu,
ilahiyyatçı-filosof

# AİLƏNİN QƏTLİ

**Rahatlıq cismi xəstəlikləri olsa belə, sağlam ruhu olan cəmiyyətə xas olan dəyərdir. Lakin ruhların xəstə və sıxıntılı olduğu cəmiyyət xoşbəxt ola bilməz, çünki orada böhranlar hökm sürər. Biz abortla, varlığın insan olmasına diqqətsizlik etməklə əxlaq və insanlıq əleyhinə müharibə böhranı yaratmışıq..**

Ümumi olaraq islamın və xüsusi olaraq Quranın əhəmiyyət verdiyi məsələlərdən biri ailədir. Quran ailəni rəhmət və məhəbbət mədəni bilir. Bizim cəmiyyətimizdə insanlar mərhəmətli və mehriban tərbiyə olunmaq istəyirlərsə, rəhmət və mehribanlıq mədənini ailədən əxz etməlidirlər, yox əgər ailədə bunlar olmazsa, cəmiyyət məhrəmət, mehribanlıq və digər ülvi hisslərdən məhrum olacaq.

Başqa sözlə, əxlaqi cəmiyyət ailədən asılıdır. Əgər ailədə əxlaq çiçəklənməzsə, cəmiyyətdə bu nemətdən məhrum olarıq. Buna görə də istər hüquqi, istər tərbiyəvi, istərsə də düşüncə baxımından ailə məsələlərinə diqqət etmək cəmiyyətdə öz təsirini birbaşa qoyacaq.

Araşdırdığımız silsilələr bölməsi fiqhi sahəyə aid olacaq. Çünki fiqhi sahənin daxilində kəlam, əqidə və baxış da vardır. Buna görə də həmin məsələlərə diqqət və onlara məntiqi yanaşma ailələrin sağlam və Quran əsasında tərbiyə olunmasına səbəb olacaq.

Ümumdünya cəmiyyətinin problemlərindən biri "abort" məsələsidir. Abortla bağlı statistika yol qəzasında ölənlərin sayından çoxdur. Abortla bağlı rəqəmlər qəsdən törədilmiş qətllərin sayından çoxdur. Amma insanlar sönmüş çıraqla bu faciənin yanından ötüşürlər və bu faciə ailələrdə baş verir. Bu məsələ ailələrin baxışı və onlardakı münasibət formalarından asılıdır.

"Abort"un mənası budur ki, "mənim qüdrətim vardır və uşaq müdafiəsiz olduğuna görə hər bir qüdrətli müdafiəsiz üzərində hakimdir". Bu baxışın çox mənfi təsirləri vardır.

"Abort"un digər mənası budur: İnsanlığı ayaq altına atmaq, hətta azadlığın özünü ayaq altına atmaq həddində olan azadlıq.

Abort dünyada "bəşər hüququnun ayrıseçkiliyi"ni göstərir. Bir tərəfdən insanın öldürülməsini əllərində bayraq edib deyirlər niyə öldürüldü? Digər tərəfdən minlərlə insan öldürülür, buna göz yumurlar, bəzən qanuniləşdirib ona icazə də verirlər.

Bəziləri cinsi azadlıq üçün insan hüquqlarına istinad



edib deyirlər: Bütün insanlar bəşərdirlər və hər bir işi görməkdə azaddırlar. Bu cinsi azadlığın nəticələrindən biri kimi qeyri-qanuni və arzuolunmaz hamiləliyin yaranmasının şahidi oluruq. Davamında görürük ki, cinsi azadlıq və arzuolunmaz hamiləliklə insan hüququ öz iddialarını da ayaq altına alır.

Maraqlıdır! İnsan hüququ ilə azadlığı istəyirdilər, çünki bu azadlığın nə əvvəli bilinir, nə də axırı. Özləri də istəmədən onun nəticələri yarandı, bu da azadlığın ayaq altına atılması, məzlum uşaqların öldürülməsi ilə nəticələndi.

"Abort" hadisəsi ilə müəyyən olundu ki, onların azadlıqdan məqsədi heç bir ipə-sapa yatmayan azadlıqdır. Əgər belə olmasaydı, "abort"la insan hüququ prinsipləri ayaq altına alınmazdı.

**Birinci məsələ:** Abort bir insanın öldürülməsi kimidir

Bilmək lazımdır ki, bu nütfə ruhun üfürülməsindən sonra insandır. Belə ki, insan öldürülməsi ilə bağlı bütün dəlillər aborta aiddir. Bu dəlillərdən insan öldürülməsi ilə bağlı ayələri göstərmək olar:

Buna görə də İsrail oğullarına yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə, o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara açıq möcüzələr gətirmişdilər. Bundan sonra da onların bir çoxu yer üzündə həddi aşdılar. (Maidə 32)

**İkinci məsələ:** Abort islam cəmiyyətində bir müsəlman insanı öldürmək kimidir.

Əgər islam cəmiyyətində abort hadisəsi baş verərsə, bir müsəlmanın qətli dəlillərini ona aid etmək olar. Çünki bu uşaq hələ ki, müsəlman olmasa da, amma islam hökmünə görə müsəlmandır.

**Üçüncü məsələ:** Abort ilahi əmanətə xəyanət kimidir

Liberal dünyada bu barədə naqis dəlil müzakirə olunur ki, deyilir: “Bu cism, bu uşaqlıq mənimkidir”. Ana deyir: “Mən bu uşağı daşımaq istəmirəm, mən öz cism və ruhuma hakim olduğum üçün abort edə bilərəm!”

Bu dəlillər Allahın yox, insanın üstün tutulmasını göstərir. Bu dəlillər ondan xəbər verir ki, insan özü üçün yaşama qanunları müəyyənləşdirir. Hakbuki dini və inanclı bir cəmiyyətdə qanunu Allahdan alır.

Allaha inanan ana bilir ki, hətta öz üzvlərinə belə hakim deyil, o ki qaldı onun bətnində olan əmanətə hakimliyi. Amma liberalların gətirdiyi dəlil belədir: Mən öz üzvlərimlə bağlı azadam. Buna bənzər dəlillər hicab və iffət məsələlərində də vardır ki, əlbəttə aborta da aiddir.

İnsan öz üzvlərinə hakim deyil, insan öz malına-mülkünə hakimdir. Bu da şəriətin icazə verdiyi həddə. İnsan öz üzvlərinə hakim deyil. Öz gözünü kor etmək, öz əlini kəsmək icazəsi yoxdur. Haqq insanın yaradıcısı və maliki kimi Allaha məxsusdur ki, insana verilir və Allah heç vaxt belə haqqı insana verməmişdir. Bu baxımdan insanın cismi və ruhu onun tabeliyində deyil. Buna görə də intihar əməli haramdır, insan üzvləri üçün təhlükə yaradan işlərə əl atmaq da haramdır.

Bu dəlillərin əksəriyyəti humanizm təfəkkürünə əsaslanır. Allah kənarlaşdırılaraq insan Onun yerinə qoyulur.

Dedik ki, abort insan qətlinə bərabərdir və insanın ilahi əmanət olan öz üzvlərinə xəyanət etməyə haqqı yoxdur.

## Abort və ikinci dəlillər

İslam realist bir dindir və əslində insanı tərbiyələndirmək istəyir. Bəzi işlərdə çarəsizlik, sıxıntı, çətinlik kimi məsələlər qaşıya çıxa bilər. Din bunları rəsmi olaraq tanımışdır. Əgər nəsə bu sözlərin dəlillərindən olarsa, onda din ona icazə verir və onu cayiz sayır.

Əgər mütəxəssisin müəyyənləşdirdiyinə görə ana və övladın ölüm təhlükəsi vardır və ya yalnız uşaq ölə bilər ağıl abort hökmü verir. Çünki hər halda uşaq öləcək. Bəzən də abort vacibdir, çünki belə vəziyyətin problemi yoxdur.

Amma əgər ya ana, ya uşaq öləcəksə burada sıxıntı olmamalıdır. Bir canı digərindən üstün tuta bilmərik. Burada ana ilə uşağın fərqi yoxdur, hər ikisinin ruhu vardır və insandırlar.

Belə ki, problem bəzən birinin ya ikisinin ölümündədir, əgər ana ya övladın ölüm təhlükəsi vardırsa, bu zaman uşağı abort etmək olmaz.

## Abort və iqtisadi şübhələr

Bəzən aborta bəraət üçün iqtisadi və yaşayış şübhələrini önə çəkirlər və deyirlər bir ailə bunları necə idarə edə bilər. Quran övladın öldürülməsi ilə bağlı deyir: Biz həm sizə ruzi verərik, həm də onlara ruzi verərik.

Cahiliyyət dövründə övladlarını üç səbəbdən öldürürdülər.

**Birinci amil:** Əqidə və dini xurafat amili: Bütlərə qurban etmək. Bu zaman qızları və oğlanları öldürürdülər.

Beləcə, ortaqları müşriklərin bir çoxuna onları məhv etmək və dinlərinə qarmaqarışıqlıq salmaq məqsədilə övladlarını öldürməyi yaxşı bir iş kimi göstərdilər. Əgər Allah istəsəydi, bunu etməzdilər. Onları da, uydurduqları yalanları da başlı-başına burax!(Ənam: 137)

**İkinci amil:** Qızlarını öldürmək cahillik qeyrəti sayılırdı. Nəhl surəsində oxuyuruq:

Onlardan birinə qızı olması ilə müjdə verdikdə qəzəblənib üzü qapqara qaralar. (58)Verilən müjdənin pisliyi üzündən tayfasından qaçıb gizlənər. Görəsən, onu (o körpəni) zillət içində saxlayacaq, yoxsa torpağa göməcək? Bir görün onlar necə pis mühakimə yürüdürlər! (59)

Üçüncü amil: İqtisadi və məişət məsələlərinə görə qızlar və oğlanlarını öldürürdülər: Bu üçüncü amil haqqında Allah buyurur: Sizin ruzinizi Allah verir. Bu övladı öldürməyə heç bir əsas vermir.

Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın (qətlini) haram buyurduğu cana qıymayın. (Ənam: 151)

## Əlil övlada rəhm səbəbindən abort

Bəzən mütəxəssis həkim müəyyənləşdirir ki, uşaq dünyaya əlil gələcək. Buna görə həmin embriona rəhm səbəbindən abort edilir. Əlbəttə, bu halda abort anaya da rəhm sayıla bilər, çünki əlil övladın saxlanması üçün çoxlu xərclər tələb olunur.

Əgər həqiqətən bu məsələ çətinliklə nəticələnəcəksə, bu başqa mövzudur. Amma övladlar ilahi imtahandır. Bu dünyada hər kəs ilahi imtahan aşırımlarından keçməlidir. «فکّ رقبه» Etməli, «اطعام فی یوم ذی مسقبه» yerinə yetirməlidir. Xoş günlərdə insan inkişaf etmir. İnsan çətinliklərlə üzləşən zaman inkiaf edir. Allah hər bir insanı çətin hadisələrlə üzləşdirir ki, insanın fəzilətləri yüksəlsin.

Belə bir iş imtahandan kəsilmək deməkdir. İqtisadi vəziyyətə görə bir dövlətin bütün kasıblarını öldürmək olmaz. Bu təfəkkürün kökü meşə qanunlarına gedib çıxır.

Abort məsələsində əsas məqam budur ki, insan bəzən öz qədrini itirir, rahatlığını abortda görür. Bu bütün mənəvi dəyərləri mənasız görmək mənasındadır. Özünün rahatlığı üçün bu pis işi görür.

Məhəmməd Baqir Saivər



# ERKƏN EVLİLİK ERKƏN NİŞANLANMA



***İslam dini ibadət üçün yaş təyin etdiyi kimi evliliyin üçün konkret heç bir yaş həddi təyin etməyibdir. Amma bəzən evliliyin yaşının bir tək xronoloji baxımdan "həddi buluğ" yaşına yetişməni əsas götürmək yanlışdır. Peyğəmbərimizin (s) kəlamlarından anlaşılır ki, dinimiz evliliyi, bir şəxsin ailə qurmasını qüdrət və imkan əldə etdiyi, hər cəhətdən hazır olduğu təqdirdə gecikdirmədən tövsiyə edir. Buna görə də İslam dini evlilik üçün yaş həddi qoymayıb. Bu məsələ bir ölkədən digərinə, iqlimə və irqə görə və insanların fərdi fizki, bioloji, psixoloji və sosial şərtlər baxımından fərqlidir.***

Belə halda qısa olaraq demək olar ki, evlilik üçün tövsiyə olunan yetkinlik yaşı aşağıdakılardan ibarətdir:

**1. Xronoloji yetkinlik;**
**2. Bioloji yetkinlik;**
**3. Sosioloji yetkinlik;**
**4. Psixoloji-mental yetkinlik.**

Gənclərin - istər oğlan olsun və ya qız bu dörd baxımdan yetkinlik yaşına çatdığı təqdirdə evliliyə qüdrət və imkan əldə etmiş olur. Belə olan halda da gecikmədən evlənmələri tövsiyə olunur.

Əgər insan bioloji cəhətdən yetkinlik yaşına çatıbsa, bu o demək deyil ki, onun psixoloji, əqli və sosial vəziyyəti də qənaətbəxşdir. Gəlin bu gün real cəmiyyətimizi analiz edək. Gürcüstanda bütün gənclərin hamısı məhz 18 yaşında evlilik həyatı yaşamağa nə dərəcədə qadir olurlar? Oğlanın evlənməsi üçün hansı şərtlər var?

Evlənmək üçün ilk növbədə iqtisadi təminat olmalıdır. Gələcək ailənin sorumluluğunu, yükünü daşıması və lazımi həddə ailə xərclərini təmin etməsi üçün bu məsələ olduqca vacibdir.

Bu gün yaşadığımız dünyada evlənəcək bir şəxsin sosial təminatı formalaşdırması üçün müəyyən mərhələləri keçməlidir. Orta məktəbi bitirməli, ali təhsil almalı və ya bir peşə sahibi olmalı hərbi xidməti başa vurmalıdır. Nəticə etibarı ilə belə olduğu halda təbii ki, erkən deyil, vaxtında evlilik baş tutacaqdır. Əlbəttə evlənərkən tam geniş maddi imkanı olması şərt deyil. Sadəcə onu qazanmaq potensialına malik olması kifayət edir. Bir də Allaha arxalanmaq lazımdır ki, çünki ruzini verən Odur.

Əlbəttə burda yanlış anlaşılmasın. Belə yuxarıdakılara yiyələnmədiyi təqdirdə evlənmək tövsiyə hesab olunmasa da haram deyil. O da səhv anlaşılmamalıdır ki, yeni qurulan ailəyə heç olmasa bir müddət valideynlərin dəstəyinə heç bir ehtiyac qalmır.

Təəssüflə bu gün yaşadığımız cəmiyyətdə görürük ki, ekonomik, qeyri düzgün təlim və tərbiyə, yaşına uyğun məşğuliyyətin olmaması və s. müxtəlif səbəblər üzündən yuxarıda qeyd etdiyimiz yetkinlik sahələri bir-birini tamamlamır. Bəzən biri digərini üstələyir. Gəlin baxaq, Gürcüstan yeniyetməsinin xronoloji yaşı ilbə-il artdıqca digər əqli, sosioloji yaşları da arta bilirmi? Uşağın hər dörd sahədən yetikinlik yaşa çatması nadir hallarda harmonluq təşkil edərək bərabər inkişaf edir.

Yəni psixoloji baxımdan və ailənin iqtisadi cəhətdən təmini sahəsində ailənin kişisi və gələcəyin atası olmağa hazır olmayan gənclər bioloji baxımdan şəhvani hissləri oyandığından evlənmək fikrinə düşür və ya ailənin tərəfindən buna məcbur edilir. Nəticədə erkən evləndikdən az sonra müəyyən ailə məişət zəminində problemlər yaşanmağa başlayır. Ailəni idarə etməyi və evdarlığı bacarmayan cütlük arasında anlaşılmamazlıq, zorakılıq halları və boşanmalar qarşıya çıxır.

Dinimiz insan tələbatları ilə harmoniya təşkil edən ümumbəşəri dindir. Dinimizə görə insanın təbii ehtiyaclarının qarşısına heç bir şəkildə sədd çəkilməməlidir. Sadəcə bütün emosional və şəhvani hisslərin ağıl və məntiqə tabe olaraq onun kontrolu çərçivəsində yaşaması tövsiyə olunur. Çünki insanın xöşbəxtliyi, sağlam ailə sahibi olması, gələcəyə sağlam övlad bəxş etməsi daha önəmlidir. Başqa sözlə desək, ailə, islama görə, kiçik bir ictimaiyyətdir. Sağlam ailə sağlam ictimaiyyət deməkdir. Sağlam övlad tərbiyə edib ictimaiyyətə təhvil vermək hər bir valideynin borcudur. Yəni qüdrət dedikdə təkcə şəhvani hislər deyil, bütün bu məsələlər nəzərə alınmalıdır. Məhz bu halda

cəmiyyətimizdə sağlam, sarsılmaz xoşbəxt ailələrin formalaşdığının şahidi olacağıq.

**Erkən yaşda nişanlamaq olarmı?**

Yuxarıda da qeyd etdiyimiz kimi, evliliyin konkret xronoloji yaşı olmadığı kimi, nişanlama, yəni ad eləmənin də konkret yaşı yoxdur. Ancaq diqqət olunmalıdır ki, gələcəkdəki evliliyi öncədən bir növ razılaşdırma aparaaraq nişan edərkən bu suallara cavab tapılmalıdır:

1. Oğlan və qızın razılığı varmı və ya artıq düzgün seçim etmə, qərarvermə qabiliyyətinə malikdirlərmi? Yoxsa bunların yerinə valideynlərmi qərar verir? Evlilik vədəsinə çatdıqda fikirləri necə dəyişməz olaraq qalacaqmı?

2. Belə halda cütlüklər İslamın tövsiyə etdiyi elm öyrənməkdən və ya gələcəkdə evlilik yükünü götürmək üçün ailədaxili ehtiyacları qarşılamaqdan ötrü formalaşa və püxtələşə biləcəklərmi?

3. Bu hal yaxında nişanlanmanın iqtisadi yükündən qurtulmaq üçün evliliyi tezləşdirməyəcəkmi?

Hacı Ramin İgidov

# ÜST-İNSAN - İlqar Kamilin essesi

***Dünən evdə uşaqları krantın yanına gətirib növbəylə əl-üzlərini yumalarını istəyəndə məsələnin gəlib ta buralara qədər çıxacağını düşünməmişdim. Mən sadəcə dəniz görmüşdüm, qəfil görmüşdüm; üfüqlər başımı aldatmasa 5-6 qucaq üzüb çıxacaqdım, amma suyun qadın ılığı dartdı apardı məni, bir də baxdım ki, ay dili-qafil, artıq xeyli uzaqlaşmışam... sahildən.***

Krantın qabağına keçdik: buyur, oğlum, səndən başlayaq, haydı göstər məharətini!

Tapşırıq əyləncəli gəlmişdi-nədi, yuyuna-yuyuna bir-birinə baxıb gülüşürdülər: görəsən, ata yenə bizə nə öyrətmək istəyir? Ata isə... durdu, durdu, bir də gördü ki, alıb əlinə mikrofonu, üst insan haqda danışır. Təsəvvür edirsiz, hamam və üst insan fəlsəfəsi!

Səs də yaxşı çıxır, axı...

Bu faktdır ki, uşaqlar indi eşitdikləri qəliz söhbətləri yaddaşlarında saxlayıb illər sonra başa düşə bilirlər, yəni məsələn, buğda adına ovuclayıb qoruduqları filan söhbəti ancaq böyüyəndən sonra arıtlaya bilir uşaqlar: bu buğdadı, bu daşdı, bu tozdu, bu da onların küləyi. Məsələn, mən uşaqkən tez-tez eşidib haq verdiyim bir söhbətin məğzini (oxu: yanlışını) böyüyəndən sonra, çox sonra anlamışdım. Təsəvvür edin, adam bütün israfkarlıqlarına belə bəraət qazandırırdı: halal zəhmətimlə qazandıqlarımdı də, başqasının pulun dağıtmıram ki!

Uşaqlara deyirdim, deyirdim, uşaqlar, ağılın işi təkcə halalla haram arasında sərhəd qoymaq deyil, haramdan çəkinməyə nə var ki? Yox, məsələ bu qədər sadə deyil, sadə olmamalı. Üst insanı məhz halallarla ünsiyyətdə tanıyacaqsınız, yəni üst insan öz ana südü kimi halalıyla belə ehtiyatla davranan insandır! Məsələn, iki ovuc suyla yuyula bilən əl-üz beş ovuc suyla yuyulmamalı... - deyir, onlara krantla necə düzgün davranmalı olduqlarını göstərirdim.

Bəzən mənə elə gəlir, problemin kökü burdadı -halal(ım)dı deyib ehtiyatsız davrandıqlarımız, dağıtdıqlarımız və... əzdiklərimizdə! Elə qiyamət günü bizi



üzü qara eləyən də deyəsən, məhz bu qəbil halallarımız olacaq, axı!

Tutalım, böyük supermarketlərdə içki satılan sıralardan belə keçməyən dindarın suyla (qeyd: su burada bütün halalları simvolizə edir) münasibəti necədir, görəsən? Orucluq ayini, məsələn, təkcə içki içməyi deyil, su içməyi də yasaq edir, əzizim, yəni insana halaldan imtinanı öyrədir; nədən ki, əsl sınaq halalla olunan sınaqdır, əsl dərs ordadır. İnanmasanız, həzrət Adəmin ilk imtahanını xatırlayın.

Tanrı insanı sevirsə, üst-insana aşiqdir. İnsan bioloji, üst-insan ilahi varlıqdır... bu siyahını uzatmaq da olar, lakin dedim axı, ən ümdə bəlası məhz burdadır bəşəriyyətin: halalıyla münasibətlərində - xanımıyla, əriylə, doğmasıyla, dostuyla...

Və lütfən uşaqkən əzbərləyib yenicə anladığım bu hədisi də basın bağrınıza: imam Sadiq əleyhissəlam israr edirmiş ki, aranızda olan doğmalığa arxalanaraq (oxu: sui-istifadə edərək) dostunuzun haqqına girməyin!

# RAMAZANIN SİRRİ

**Hər zaman Ramazan ayı öz mənəvi yükü ilə rutin həyatımıza daxil olaraq, bizi bir qədər gündəlik qayğılardan ayırardı. Bu dəfə isə, o, qapımızı səssizcə döyəcək, deyəsən: artıq bir aydır ki, dünyada həyat qaynamır. Qasırğadan əvvəlki susqunluqdur sanki.**

Ramazan ayı bəlkə də ona ən çox ehtiyaclı olduğumuz bir zamanda bizə tərəf gəlir. Yaşlı nəslin çoxdan unutduğu, gənc nəslin isə heç zaman görmədiyi bir aram dövr yaşayırıq. Bəli, keçmişdə hadisələr daha çox, daha səsli olardı: müharibələr, inqilablar, ixtiralar, kəşflər... Amma bununla belə insan həyatı aram idi. Çünki ehtiyaclar az idi. Zamanla ətraf aləmdə hadisələrin səs-küyü azaldı, amma daxili aramsızlıq çoxaldı. Elmi-texniki sıçrayış ehtiyaclarımızı artırdı, xoşbəxt olmaq üçün növbənöv nemətlərə yiyələnməyi təklif etdi. Həyatımız böyük bir bazarda alış-verişə bənzəməyə başladı. Bazarın isə, öz qanunu var. O, istəkləri çoxaldır, imkanı isə azaldır; maddiyyatı qabardır, mənəviyyatı isə unutdurur; xəyalları gücləndirir, reallıq hissini isə əldən alır. Hər şey də buna xidmət edir - musiqi müşaiyəti, düzülüş qaydası, reklam tərtibi, dizayn və s. Beləcə, gözümüz orda-burda qala-qala, imkanımız tükənə-tükənə, özümüzü unuda-unuda həyat ötüb keçir. Sonda da gerçəkləşməmiş arzuların acısı ilə həyatla vidalaşmalı oluruq.

İnsan həyatı sevmədiyindən sevdiyinə doğru bir hərəkətdir. Eynilə tarixi proses kimi. İlk gündən insan köləlikdən azadlığa, zülmdən ədalətə tərəf qaçır. Bəs nə üçün əsrlər ötsə də öz hədəfinə çatmır? Müasir sivilizasiyamız öz bənzərsiz nəaliyyətləri ilə belə bizi nə azadlığa, nə ədalətə çatdıra bilib. Düzdür, bizə təlqin olunur ki, yer üzündə artıq cənnət qurulub. İnsanların fikirlərini azad ifadə etdiyi, yüksək sosial təminat içində yaşadığı, heç bir önyarğının qurbanı olmadığı ölkələr varmış. Nə istəsən edə bilərsən, təki başqasına mane olma. Bəziləri etiraz edir ki, bu azadlıq və ədalət həqiqi deyil, çünki başqa ölkələrin istismarı, başqa xalqın məhrumiyyəti üzərində qurulub. Bu sözdə həqiqət var, lakin sual bundadır ki, həqiqətənmi bizə örnək olaraq göstərilən azadlıq azadlıqdır, ədalət isə ədalət? Sosializmin ən kəskin tənqidçilərindən, liberalizmin ən cəsarətli müdafiəçilərindən biri olan Fridrix fon Hayek yazırdı ki, sosialistlər köləlikdə, liberallar isə azadlıqda bərabərlik təklif edirlər. Sosial məfkurənin aparıcı simalarından olan Karl Polanyi isə, liberalların mədh etdiyi iqtisadi azadlığın siyasi azadlıq qarşısında sədd və ədalətsizliyin əsas səbəbi kimi görürdü. XX əsrdə siyasi düzənlərin formalaşmasında mühüm rol oynayan bu opponentləri birləşdirən mühüm bir məqam var. Onlar hər ikisi azadlığı da, ədaləti də iqtisadiyyat çərçivəsinə salırdılar. Yenə də




bazar məntiqi. Nəticə etibarı ilə, bu cəbhələrin ikisi də insana eyni həyat fəlsəfəsi təqdim edirdi və etməkdədir. Bu fəlsəfə bizi o qədər ovsunlayıb ki, artıq sadə həqiqətlər haqda da düşünəndə bir marketoloq məntiqini işə salırıq. Nə həqiqət qalıb, nə yalan. Nə yaxşı qalıb, nə pis. Hər şeyə şəxsi mənfəət-ziyan müstəvisindən baxırıq. Hər şeyi almaq istəyirik, paylaşmadan, bölüşmədən. Alınması mümkün olmayan bir şey gözümüzdə dəyərini itirdi, hətta ən dəyərli və ən müqəddəs hisslər belə. Bu tərz-təfəkkürün əsiri hər kəsdir - alim də, cahil də, sənətçi də, tacir də, ziyalı da, fəhlə də, zəngin də, fəqir də. Zəifliyimizi nəinki etiraf edə, heç görə də bilmirik. Bu həyat bizi o qədər qane edir ki, narahedici hadisələri izah etmək üçün konspiroloji fərziyələr, mistik düşmənlər uydururuq. Nə olursa olsun, bircə alternativ haqda düşünməyək. Amma həyat onu layiqincə dəyərləndirməyənlərdən intiqam alır - illüzor dünyamız bir virusla sarsıldı. Bazardan evlərimizə çəkildik. Nə edəcəyimizi də bilmirik. Elə bu andaca qapımızı Ramazan ayı döydü.

Ramazan ayı könüllü məhrumiyyət ayıdır. Onun mənəvi fəzasının sirri də bundadır. Xoşbəxt olmaq üçün ehtiyaclarımızın azlığını başa düşməli və reallıq hissini özümüzə qaytarmalıyıq. Ayağımızın altında möhkəm zəmin, önümüzdə işıq görmək üçün diqqətimizi cəm edib təmərküzləşməliyik. Böyük və canlı vəhdətin bir hissəsi olduğumuzu hiss etmək üçün başqalarının acısına və sevincinə şərik olmalıyıq. Bütün bunlar yalnız könüllü məhrumiyyətlə, yəni orucla əldə oluna bilər.

Ötən əsrdə Berdyayev yazırdı: "Şərq Qərbdən daha kosmikdir, Qərb isə daha insanidir. Qərbin gücü və əhəmiyyəti bu insanilikdədir, amma elə məhdudluğu da". Hələ yüz il öncə bəşəriyyətin yarısı özünü böyük bir vəhdətin parçası (kosmik) sayırdı. İndi isə, əksəriyyət özünü çoxluğun müstəqil bir ünsürü (insani) kimi dərk edir. Hələ yüz il öncə bəşəriyyətin yarısı dünyanı özü ilə məhdudlaşdırmır, qarşısında sonsuz imkanlar üfüqü görürdü. İndi isə, əksəriyyət öz dünyasından kənara çıxa

bilmir. Ona görə də dünyamız hər cəhətdən məhdudlaşıb, daralıb, sıxıcı olub.

Peyğəmbərimiz (s) “oruc - cəhənnəm odu qarşısında bir sipərdir” buyurub. Bu hədisinin Axirət müstəvisində oxunuşu ilə yanaşı, dünyəvi müstəvidə də oxunuşu var. Xoşbəxt və dolğun yaşaya bilmədiyimiz həyat cəhənnəmdir bizim üçün. Məhdud imkanlarla sonsuz arzular arasında parçalanmaq, gerçəkləşməmiş arzuların acısını duymaq, özünü başqaları ilə müqayisə edərək yaşamaqdır cəhənnəm odu. Bu oddan qorunmaq üçün özümüzə “dur!” deməyi bacarmalıyıq. Bir sözlə imkanlarımızı genişləndirmək, ekzistensional ehtiyaclarımızı qarşılamaq və özümüz olmaq üçün məhrumiyyətlə üzləşməliyik. Bu səbəbdən oruc maddi dünyanın da cəhənnəmi qarşısında bir sipərdir.

Beləliklə, ona ən çox ehtiyac duyduğumuz zaman Ramazan ayı bizə tərəf gəldi. Özümüzü itirdiyimiz bir vaxt özümüzə hakim olmağı öyrətmək üçün.

# XİLASEDİCİ MƏDƏNİYYƏT - ORUC




***Bəlkə də elə din yoxdur ki, orada oruc, yəni könüllü şəkildə fizioloji ehtiyaclardan imtina ideyası olmasın. Hətta bu ayinin nə qədər qədim olması haqda da bir söz demək mümkün deyil. İnsan var olduğu qədər oruc da var...***

Oruc həm bir ayin, həm bir ideya kimi hər zaman anti-insani mədəniyyət qarşısında bir sipərdir. Ta qədim zamanlardan bu günə kimi insan özü haqda iki aşırı mövqedə durur: maddi və mənəvi. Günümüzdə də dünyaca məşhur insanların gah materializmə və maddiyyatpərəstliyə, gah da inziva və tərki-dünyalığa meyilləndiyini görürük. Bu da bir qədər anlaşılandır. Radikal addım hər zaman radikal əksüləməl doğurur. Dünyamız maddiyyata qərq olduqda, insan mənəviyyata tərəf qaçmaq istəyir. Əksinə, mənəviyyat maddiyyatı kölgədə qoyduqda - insan bütün varlığı ilə mənfəətpərəstlik dənizinə dalır. Hər iki halda insan özü ola bilmir, öz əksinə getmiş olur. Lakin oruc bu çalxalanmanı ram edir, bir reallıqdan digərinə qaçmağa imkan vermir. Oruc insana onun həm maddi, həm mənəvi varlıq olduğunu yaşadır. Yəni, reallığı olduğu kimi göstərir. Bəlkə elə bu səbəbdən Pifaqor tədrisə başlamamışdan öncə şagirdlərinə qırx gün oruc tutmağı tapşırardı. Oruc məna ilə maddə arasında əlaqəni üzə çıxarır. Hər iki cəhətin keyfiyyətcə bir-biri ilə bağlı olması oruc tutana bəlli olur. Heç demə, mənəviyyatın unudulduğu bir dünyada maddi rifaha çatmaq da mümkün deyil. Necə ki, maddiyyatı önəmsəmədən mənəvi gücə də yiyələnmək olmur. Bu baxımdan oruc bir dünyagörüşüdür.

Orucun ortaya qoyduğu digər bir həqiqət də var: zaman hər şeyə hakim deyil. Hər şeyin, hətta etiqad və hisslərin belə, dəbə qurban gətirildiyi bir dünyada dəyişilməz prinsiplərin, köhnəlməyən qaydaların olmasını bilmək həyati əhəmiyyət kəsb edir. İnsan inkişaf edən, dinamik bir varlıqdır. O, bir yerdə dayana bilmir, daim öyrənməyə, yeni təcrübələrə can atır. Amma onu gözləyən müəmma qarşısında hər zaman cəsarətsizlik göstərir. Ona cürət verən dayaq nöqtəsinin olmasıdır. Yəni insan əmin olmaq istəyir ki, hansı zirvəyə qalxsa da, hansı dərinliyə varsa da, insan olaraq qalacaq. Bütün ideologiyaların ən çatışmayan cəhəti məhz budur: insana şövq və ümid verir, amma əminlik və güvən yox. “Həyatı necə düzgün yaşamaq gərəkdir?” sualına cavab axtaran Fuko fəlsəfəyə “öz qeydinə qalmaq” anlayışını gətirir. Öz qeydinə qalmaq, yəni öz daxilindəki əbədi və dəyişilməz həqiqətin qayğısını çəkmək, təfəkkürü daha yüksək müstəviyə qaldırmaq, maddiyyata bağlanmamaq və xüsusi məşqlər etməkdir, postmodernist filosofa görə. Oruc insana bu hissləri yaşadır. Oruc tutan şəxs əsrlər öncə yaşamış əcdadları və əsrlər sonra yaşayacaq nəticələri ilə, fərqli coğrafiyada yaşayan və fərqli sosial statusda olan insanlarla dəyişilməz bir həqiqəti bölüşdüyünü hiss edir. Zaman və məkanın fövqündə duran eyni hisslər, eyni ehtiyaclar, eyni amallar bütün fərqlilik və fasilələri aradan aparmağa qadirdilər. Zamanmərkəzli (liberalizm) və məkanmərkəzli (mühafizəkarlıq) ideologiyalar arasında parçalanan dünyada oruc alternativ bir yoldur.

Orucun rahatlıq yaratmaq gücü də var. İstehlakçı mədəniyyət texnoloji və iqtisadi inkişaf görüntüsü yaratsa da, reallıqda insana rahatlıq bəxş edə bilmədi. Əksinə, həm maddi, həm mənəvi baxımdan ciddi fəsadlara səbəb oldu: maniyalar və asılılıqlar çoxaldı, təbiətin çirklənməsi və təbii resursların tükənməsi olmazın sürət yığdı, sosial fərqlər kəskinləşdi, insan öz kimliyini unutdu. Təsadüfi deyil ki, Bodriyar müasirliyi “zibilqabı sivilizasiyası” və ya “supermarket erası” deyə adlandırırdı. İnsan olan bir varlıq həyatını istehsal-istehlak müstəvisində dəyərləndirə bilməz. Əks təqdirdə, gərək yaradıcı azadlığını əldən versin, başqa sözlə, cəmiyyət gərək intihar etsin. Ona görə də artıq “daunşiftinq”, “aram həyat” və “sadə həyat” fəlsəfəsi öz minimalizmi ilə günü-gündən daha çox gəncin marağını cəzb edir. Təbiidir ki, xoşbəxtlik yalnız sonsuz istehlakla deyil, həm də imtina ilə əldə olunur. Yalnız ikrah hissi yaranmasın deyə deyil, həm də zərfiyyəti çoxaltmaq üçün imtina etməliyik. Hər şeyin fizioloji ehtiyaclar bucağından dəyərləndirildiyi bir dünyada oruc - xilasedici mədəniyyətdir.

Hacı Şahin Həsənli *(“Ədəbiyyat” qəzeti)*



# BAŞQA DİNLƏRDƏ DƏ QƏDR GECƏSİ VARDIRMI?

***Allah Təala "Duxan" surəsində bu mübarək gecəni belə təsvir edir: "And olsun bu aydın və aydınlaşdırıcı kitaba ki, Biz onu (bir yerdə) çox bərəkətli bir gecədə (Qədr gecəsində) nazil etdik. Çünki Biz (Öz ənənəvi qanunlarımıza əsasən) həmişə (aləmdəkiləri) qorxudan olmuşuq. Həmin gecə bütün möhkəm işlər (ilin hadisələri, o cümlədən gələn Qədr gecəsinə kimi Qur'anın nazil olması) bir-birindən ayrılır (və icraçı məmurlara çatdırılır). Bizim tərəfimizdən qaynaqlanan bir iş! Çünki Biz həmişə (mələkləri yaradılış işlərini idarə etmək və peyğəmbərləri şəriət işlərini çatdırmaq üçün) göndərən olmuşuq. Rəbbinin mərhəmətin(in tələblərin)ə xatir. Çünki (ehtiyacı olanların söz və əməl istəklərini) eşidən və (onların ehtiyaclarını) bilən Odur". ("Duxan" 2-6).***

İslami hədislərə nəzər salan zaman aydın görmək olur ki, Qədr gecəsi başqa dinlərdə də mövcud olmuşdur. Əlbəttə İslam Peyğəmbərinin (s) məqamı başqa peyğəmbərlərdən (ə) daha üstün olduğu üçün Qurani-Kərim bu mübarək gecədə ona nazil olmuşdur. Bu da Qədr gecəsinin nə qədər əhəmiyyətli olduğunu bir daha göstərir.

Məsum İmamlardan (ə) biri buyurur: "Allah Qədr gecəsini dünyanın yaradılışının əvvəlində o zaman ki, ilk nəbini və ilk vəsini xəlq etmişdir, meydana gətirir. Həqiqətdə belə iradə edir ki, hər il elə bir gecə olsun ki, onda gələn ilə qədər olan işlərin təfsiri nazil olsun. Hər kim bu həqiqəti inkar edər, Allahı elminə görə rədd etmiş olar. Çünki İlahi peyğəmbərlər (ə) qiyam etməz, məgər o halda ki, belə bir gecədə onlara hüccət verilsin. Allaha and olsun ki, Adəm ölmədi, məgər o halda ki, vəsisi var idi. Adəmdən (ə) sonra hər bir peyğəmbərə (ə) bu gecədə (Qədr) Allahdan əmr gəlirdi ki, onu özündən sonra vəsisinə buraxırdı. O kəsin imanı üstündür ki, "Qədr" surəsinin hamısına və təfsirinə iman gətirər".

Əbuzər Həzrət Peyğəmbərdən (s) soruşur: "Qədr gecəsi ancaq peyğəmbərlərin (ə) zamanında olur və onlardan sonra aradan gedəcəkdirmi?". Həzrət (s) buyurur: "Xeyr, belə deyildir, Qiyamət gününə qədər qalacaqdır".

Həzrət Peyğəmbər (s) başqa bir hədisdə buyurur: "Həzrət Musa (ə) dua edən zaman buyurur: "Allahım, qürbünü istəyirəm". Allah Təala buyurur: "Qədr gecəsinin oyaq qalmağındadır". Deyir: "Rəhmətini istəyirəm". Buyurur: "Qədr gecəsində yoxsullara rəhm etməkdədir". Deyir: "Allahım, Siratdan keçmək icazəsini istəyirəm". Cavab gəlir: "Qədr gecəsində sədəqə ver". Deyir: "Allahım, behişti və nemətlərini istəyirəm". Buyurur: "Qədr gecəsində təsbih deməyin girovundadır". Deyir: "Cəhənnəm atəşindən nicat istəyirəm". Buyurur: "Qədr gecəsində istiğfar etməkdədir". Deyir: "Allahım, razılığını istəyirəm". Buyurur: "Qədr gecəsində namaz qıl".

Tövrat və İncildə məhz Qədr adlı bir gecə yoxdur. Ancaq onun yerinə xüsusi əməlləri olan müqəddəs gecə vardır. Fəsəh və ya Fətir adı ilə məşhurdur. Həzrət Musa (ə) həmin gecədə Bəni-İsraili bəzi xüsusi işlərə vadar edirdi. Bu gecədən bir neçə gün əvvəl oruc tutulardı və bu, Qədr gecəsinə çox bənzəyən bir gecədir.

Xristian dinində də bu gecə müqəddəs hesab olunur. Onların inancına görə, Həzrət İsa (ə) son şamını həmin gecədə yemişdir. Bu gün xristian aləmində "işayi-Rəbbani" və ya "axırıncı şam" kimi məşhurdur.

Bu dinlər həmin gecələri Qədr gecələri adlandırmasa da, ancaq onları müqəddəs hesab edir və onda xüsusi əməllər yerinə yetirirlər. İslami hədislərdən də belə nəticəyə gəlmək olur ki, Qədr gecəsi xilqətin ilk günlərindən müəyyən edilmişdir. Ancaq xristian və yəhudi dinlərinin müqəddəs kitablarında Qədr gecəsi adını almamışdır. Səbəbi də bu kitabların dəyişdirilməsi ola bilər. Ya da bu kitabların dili əbru dili olduğu üçün "Qədr" sözü başqa sözlə ifadə olunmuşdur.

(İslami saytlara istinadən)

# QURANIN 10 BAZA PRİNSİPİ

## Quranın təqdim etdiyi nurani göstərişlər

***İslam dininin qısa bir zaman ərzində qələbə çalmasının və insanları doğru yola hidayət edərək, cahillikdən uzaqlaşdırmasının səbəbi - Quranın təqdim etdiyi nurani göstərişlərdir.***

***Bu göstərişlər sayəsində İslam dini irəli getmiş və zəfər qazanmışdır.***

Bəs bu göstərişlər hansılardır?



**1. İnsan ictimai varlıqdır.** Quran buyurur ki, insan ictimai varlıq olduğu üçün, cəm halında yaşamalıdır. Bir-birinə yardım edərək, ehtiyaclarını aradan qaldıra bilər. Ancaq bu cəmiyyət gərək Allaha imana malik olsun və münkərdən çəkinsin. “Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın)insanlar(ın)a zahir olmuş ən yaxşı ümmətsiniz, bəyənilən işə əmr edir və çirkin işdən çəkindirirsiniz və Allaha (nazil etdiyi şeylərdə) iman gətirirsiniz”. (“Ali-İmran” 110).

**2. Şəxsiyyətin meyarı - təqvadır.** İnsan şəxsiyyətinin meyarını təyin edən amil - təqvadır. “Ey insanlar! Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq) və sizi bir-birinizi tanıyasınız deyə böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur). Həqiqətən sizin Allah yanında ən hörmətliniz - sizin ən pəhrizkarınızdır. Həqiqətən Allah çox bilən və xəbərdardır”. (“Hucurat” 13).

**3. Ədalət və bərabərlik.** İslam dini buyurur ki, cəmiyyətin hər bir üzvü - istər güclü olsun, istərsə də zəif - gərək ədalətə riayət etsin. “Ey iman gətirənlər, (bütün fərdi və ictimai işlərdə) həmişə Allaha görə möhkəm və mətin dayanan və ədalətə şəhadət verənlərdən olun! Hər hansı bir dəstə ilə düşmənçilik sizi ədalətsizliyə vadar etməsin. Ədalətli olun ki, o, təqvaya daha yaxındır. Təqvalı olun! Həqiqətən Allah etdiklərinizdən xəbərdardır”. (“Maidə” 8).

**4. Qadın haqqını dirçəltdi.** Quran qadın və kişinin şəxsiyyətini eyni cür qiymətləndirmiş və onların arasında fərq qoymamışdır. Buyurmuşdur ki, Allah dərgahında təqva mühüm amildir, istər qadında olsun, istərsə də kişidə. “Hər kim - kişi, yaxud qadın - imanı olan halda yaxşı iş görsə, onu şübhəsiz, (dünyada) pak bir həyatla yaşadacaq və (axirətdə) mükafatlarını çox gözəl olan əməllərinin müqabilində verəcəyik”. (“Nəhl” 97).

**5. Məntiq və dəlil ilə iş görməyə dəvət etmişdir.** Ona görə də kor-koranə təqlid edənləri məzəmmət etmişdir. “Əksinə, onlar dedilər: “Həqiqətən biz atalarımızı bir dində görmüşük və biz də onlara tabe olmaq nəticəsində mütləq doğru yoldayıq””. (“Zuxruf” 22).

**6. Xoşbəxtlik və bədbəxtlik - əməl sayəsindədir.** “Və insan üçün etdiyi səy və təlaşdan başqa bir şey yoxdur”. (“Nəcm” 39).

**7. Təfəkkür etməyə təşviq etmişdir.** “(Ya peyğəmbər!) de: “Yer üzünü gəzib-dolaşın, baxın görün günahkarların axırı necə oldu!”. (“Nəml” 69).

**8. Elmə təşviq etmişdir.** “Buna görə də varlığın mütləq sahib və hökmdarı, haqq və sabit olan Allah pak və ucadır. Qur’anın sənə vəhy (edilməs)i sona çatmamışdan qabaq on(un mənimsənilməsi və oxunmasın)da tələsmə və “ey Rəbbim, mənim elmimi artır!” de”. (“Taha” 110).

**9. Din, insanların mənfəətini təmin edir.** “Allah əsla sizə çətinlik yaratmaq istəmir, lakin sizi paklaşdırmaq və Öz nemətini sizə tamamlamaq istəyir (ki,) bəlkə şükür edəsiniz”. (“Maidə” 6).

**10. Münaqişənin qarşısını alır.** “Öz evlərindən nemətdən sərxoş halda və özlərini camaata göstərmək üçün çıxan və (insanları) Allahın yolundan saxlayan kəslər (Əbu Cəhlin Bədrə tərəf gedən qoşunu) kimi olmayın. Allah (qüdrət və elm baxımından) onların etdiklərini əhatə etmişdir”. (“Ənfal” 47).

# UZUN ÖMÜR

## İnsanın bu qədər uzun ömrə malik olması necə mümkün ola bilər!

**İmam Məhdinin (ə) həyatı ilə əlaqədar olan bəhslərdən biri də o həzrətin uzun ömürlü olmasıdır. Bə`ziləri üçün belə bir sual irəli gəlir ki, bir insanın bu qədər uzun ömrə malik olması necə mümkün ola bilər!**



Bu sualın mənşəyi və onun çəkilmə səbəbi hazırkı dövrdə insanların çox qısa ömürlü olub, 80-100 arasında ömür sürməsidir ki, bu kimi ömrü görmək yaxud eşitməklə uzun ömürlülüyə inana bilmir,yaxud onu çox çətin bir iş kimi qəbul edirlər. Halbuki, əql və elm nəzərindən bu iş qeyri-mümkün deyil. Alimlər bədən üzvləri üzərində təhqiqat aparıb bu nəticəyə çatmışlar ki, insan çox uzun illər ömür sürə bilər, hətta bu dövrdə qocalığa və zəifliyə də düçar olmaya bilərlər. Bernad Şav deyir: «Bütün bioloqların nəzərində qəbul olunan elmi bir prinsip bundan ibarətdir ki, bəşər ömrü üçün heç bir hədd-hüdud tə`yin etmək olmaz və uzun ömür sürməyin heç bir məhdudiyyəti yoxdur.»

Professor Etinger yazır: «Mənim nəzərimə görə bizim başladığımız işlərin və texnikanın inkişaf etməsi ilə, iyirmi birinci əsrin insanı minlərlə il ömür sürə bilər.»

Buna əsasən, qocalığa qarşı mübarizədə qələbə çalmaq və uzun ömürlülüyə yol tapmaq barədə alimlərin göstərdikləri fəaliyyətlər belə bir hadisənin mümkünlüyünü göstərir. Belə ki, bu yolda müvəffəqiyyətli tədbirlər görülmüşdür. İndinin özündə dünyanın müxtəlif yerlərində münasib ab-hava və qidalanmaq, eləcə də münasib fiziki fəaliyyətlər, fikri səy`lər və bu kimi münasib şəraitlər nəticəsində 150 ilə yaxın ömür sürmüş insanlar görünür və bə`zi hallarda bundan artıq da ömür sürürlər. Mühüm məsələ budur ki, insanların tarixində uzun ömürlülük keçmişdə də çox təcrübədən çıxarılmış, asimani və tarixi kitablarda onların adları, əlamətləri və tərcümeyi-halları ilə birlikdə çoxlu insanlar qeydə alınmışdır ki, onların ömürləri bugünkü insan ömüründən olduqca uzun olmuşdur.

Bu barədə çoxlu kitab və məqalə yazılmışdır ki, nümunə olaraq bir neçəsini qeyd edirik:

1-Qur`ani-Kərimdə bir ayə vardır ki, nəinki uzun ömürlülüyün, hətta əbədiyyətə qədər diri qalmağın mümkünlüyündən xəbər verir. O da Həzrət Yunus barəsində nazil olan ayədir ki, buyurulur: «Əgər o (Yunis), balığın qarnında təsbih deməsəydi, qiyamət gününə qədər balığın qarnında qalacaqdı.» [Saffat surəsi, 144]

Bu ayəyə uyğun olaraq həddindən artıq uzun ömürlülük (Həzrət Yunisin əsrindən qiyamətə qədər) əbədi həyat adlandırılmaqla, Qur`ani Kərimin nəzərində insan və balıq üçün mümkün olan bir işdir.

2-Qur`ani Kərim Həzrət Nuh barəsində buyurur: «Həqiqətən, Biz Nuhu öz qövmünə doğru göndərdik və o, qövmü arasında 950 il qaldı.» [Ənkəbut surəsi, ayə 14]

Bu şərif ayədən aydın olan müddət o Həzrətin peyğəmbərlik dövründən ibarətdir. Başqa rəvayətlərə əsasən, o həzrət 2450 il həyat sürmüşdür.

Maraqlıdır ki, İmam Səccad (ə)-dan nəql olunan bir rəvayətdə deyilir: «İmam Məhdi (ə) barəsində Həzrəti Nuh (ə)-ın həyatından bir üslub və sünnə vadır: o da uzun ömürlülükdür.» [Kəmalud din, birinci cild, 21, 46-cı bab]

3-Həzrət İsa (ə) barəsində isə belə buyurulur: «...Onu əsla öldürmədilər və dara da çəkmədilər; əksinə, bu iş onları səhvə saldı... Yəqin olaraq onu öldürmədilər, əksinə, Allah Onu öz yanına apardı. Allah qüdrətli və elm sahibidir.»[Nisa surəsi, 157]

Qur`an və hədislərə istinadən bütün müsəlmanlar inanırlar ki, Həzrət İsa (ə) diridir və asimanlardadır, Həzrəti Məhdi (ə) zühur edən zaman yer üzünə nazil olaraq o həzrətə kömək edəcəkdir.

İmam Baqir (ə) buyurur: «Bu əmrin sahibində (Həzrəti Məhdidə) dörd peyğəmbərdən dörd sünnə vardır... İsa (ə)-dan olan sünnə bundan ibarətdir ki, (Məhdi barəsində də): «O vəfat etmişdir», halbuki, o diridir deyəcəklər» [Biharul-ənvar, 51-ci cild, səh 217]

Qur`andan əlavə, Tovrat və İncildə də uzun ömürlülər barəsində söhbət açılır. Tövratda deyilir: «Adəmin yaşadığı bütün ömür 930 il idi ki, ondan sonra dünyadan getdi... Ənuşun ömrü 950 il idi ki, ondan sonra ölmüşdü... Qeynanın ömrü 910 il olmuş sonra ölmüşdü... Mətuşalehin ömrü 969 il olmuşdur.»

Buna əsasən, Tövratda uzun ömürlülüyün varlığına (900 ildən artıq həyat sürməyə) aşkar şəkildə dair e`tiraf olunur.

İncildə də mövcud olan bəzi ibarələrdə deyilir ki, «İsa (ə) dara çəkildikdən sonra dirilmiş və asimanlara getmişdir.»

O, müəyyən bir vaxtda nazil olacaqdır və şübhəsiz ki, o həzrətin ömrü 2000 ildən artıqdır. Bu bəyanla aydın olur ki, iki dinin – yəhudi və məsihiyyət dininin ardıcılları müqəddəs kitaba inandıqlarına görə, uzun ömürlülüyü də qəbul etməlidirlər.

Uzun ömürlülük elmi və əqli cəhətdən qəbul edildiyinə və keçmişdə onun çoxlu uzun nümunəsi olduğuna görə, Allah təalanın sonsuz qüdrəti dairəsində də isbat olunmağa qadirdir. Bütün asimani din ardıcıllarının inancına görə, aləm zərrələri hamılıqla Allahın ixtiyarındadır və bütün səbəblərin təsiri də yalnız Onun iradəsinə bağlıdır. Əgər O istəməzsə, səbəblər təsirdən düşər, eləcə də əgər o bir şeyi istəyərsə təbii səbəblər olmadan bir şeyi xəlq edərək yaradır.

O elə bir qüdrətli Allahdır ki, dağın içindən bir dəvə çıxarır, yandırıcı odu həzrəti İbrahim (ə) üçün sərin və salamatlıq yeri edir, dəryanı Musa və onun ardıcılları üçün qurudur, onları sudan olan iki sütunun arasından keçirdir! [Bunlar Qur`ani Kərimdə gələn həqiqətlərdir Ənbiya surəsi 69, Şüəra surəsi 63] Peyğəmbərlərin və ilahi övliyaların xülasəsi, ilahi zəxirələrin sonuncusu, bütün yaxşı və saleh bəndələrin son arzuları və əzəmətli Quranın və`dələrini həyata keçirən bir şəxsin Allah tərəfindən uzun ömürlü olması mümkün ola bilməzmi?! İmam Həsən Müctəba (ə) buyurmuşdur: «...Allah onun (Həzrəti Məhdinin) ömrünü qeybət dövründə uzadacaqdır. Sonra ilahi qüdrətlə onu, hələ 40 yaşına çatmayan bir cavan simasında aşkar edəcəkdir ki, Allah təalanı hər bir şeyə qadir olduğunu dərk etsinlər. (Biharul-ənvar, 51-ci cild səh 109).

Buna əsasən, 12-ci imamın uzun ömürlü olması həm əqli, həm elmi, həm də tarixi cəhətdən mümkün olan və qəbul ediləsi bir işdir. Bunların hamısından öncə də, Allah təalanın iradəsinin cilvəgahı və qüdrət məzhəri hesab olunur.

Irfan.ir

# ALLAHA YAXIN OLMAQ ÜÇÜN 8 VASİTƏ

**Hər bir möminin bu həyatdakı məqsədi – İlahi qürb məqamına çatmaqdır. Allaha çatmağın ən yaxın yolları – həmin o yollardır ki, Özü bəyan etmişdir. Bu yollar ilə tanış olaq:**

***1. Allaha itaət etmək.*** Ubudiyyət və uluhiyyət – Allahın müqəddəs zatına məxsusdur. Mömin insan gərək hər cür bütpərəstlikdən uzaq olsun. Bütün işlərini ancaq Allah üçün yerinə yetirsin. İmam Əli (ə) buyurur: "Ən yaxşı şey ki, onun vasitəsilə Allaha yaxın olmaq olar – Allaha və Peyğəmbərə (s) iman bəsləməkdir".

***2. Allah yolunda mübarizə aparmaq.*** Allaha yaxınlaşmağın ikinci yolu – Allah yolunda mücahidədir. Mücahidə – İslamın ən uca qalasıdır. Allah yolunda cihad etmək sayəsində İslam ayaqda durar və inkişaf edər.

***3. Vacibatları yerinə yetirmək.*** İmam Əlinin (ə) nəzərinə görə, Allaha yaxınlaşmağın başqa bir yolu vacibatları yerinə yetirməkdir. Həzrətin (ə) nəzərinə görə, namaz qılmaq – dinin həqiqətidir. İnsan namaz vasitəsilə Allaha yaxınlaşa bilər.

Əlbəttə, vacibatlar deyildikdə, təkcə namaz nəzərdə tutulmur, başqa vacib əməllər də nəzərdə tutulur.

***4. Günahın ziyanları barəsində təfəkkür etmək.*** Əgər insan günahın dünya və axirət ziyanları barəsində təfəkkür etsə, başa düşər ki, əgər Allaha yaxın olmaq istəyirsə, gərək günahdan uzaq olsun.

***5. Səcdə.*** Allaha yaxın olmağın vasitələrindən biri də səcdədir. Qurani-Kərim buyurur ki, səcdə et və Allaha yaxın ol.

Uca Allah Həzrət Peyğəmbərə (s) buyurur ki, "bilirsənmi ki, nə zaman bəndə Mənə yaxın olur?". Həzrət (s) buyurur ki, xeyr. Allah Təala buyurur: "O zaman ki, acdır və ya səcdə halındadır".

***6. İxlas.*** Muxlislər ali dərəcəyə çatmış insanlardır ki, özlərini Allahdan qeyrisindən pak etmişdilər. Onların bütün əməlləri Allaha aiddir. Elmlərini – Allahın elmi, həyatlarını – Allahın həyatı, qüdrətlərini – Allahın qüdrəti bilirlər. Malik olduqları hər şeyi Allahdan bilirlər.

***7. Müstəhəbləri yerinə yetirmək.*** Müstəhəb əməllər insanı Allaha yaxınlaşdırar. Allahın məhəbbətinə səbəb olar.

***8. Əhli-Beytə (ə) məhəbbət göstərmək.*** Əhli-Beyti (ə) sevən insanı Allah da sevər. Heç kəs kamal qalasına bu sevgi olmadan çata bilməz. Qiyamət günü insandan soruşulan dörd sualdan biri – məhz Əhli-Beyt (ə) sevgisi olacaqdır. (Beytutə)

Allah Təala bizləri, Ona yaxın olanlardan qərar versin!



# İSLAM və İNSAN HÜQUQLARI

**Günümüzdə aktual mövzulardan biri də insan hüquqları məsələsidir. Uyğun mövzuya müxtəlif prizmalardan yanaşmaq olar və yanaşılıb. Lakin biz insan hüquqları məsələsinə yazıya seçdiyimiz ad əsasında münasibət bildirməyə çalışacağıq. Yəni həm İslam dinin məqsədi, bu dində insanın mövqe və dəyəri və sonda isə İslamın insana verdiyi hüquqlar barəsində söz açacağıq.**

İslam, ümumiyyətlə monoteist dinlərin əsas prinsipi insanlara düzgün həyat tərzini göstərmək, onları kamala çatdırmaqdır. İslam dini bu istiqamətdə həm əqidəvi, həm əxlaqi və həm də şəri-hüquqi kodeks qarşıya qoyub.

Qeyd edilən kodeks illuziyalara deyil, reallığa, həqiqətə əsaslanıb. Yəni İslamın məqsədi cəmiyyəti islah etmək, olduğundan ilk öncə bu sahədə mədəni-maarif fəaliyyətləri aparmış, sülh, sevgi dəyərləri ilə bütün insanları bir araya gətirməyə çalışmışdır. Lakin bu müqəddəs göstərişlərə uymayan şəxslərlə sərt davranmaya bilmir. Bu sərt davranmalar aqressivlikdən yox, əslində humanist prinsiplərdən irəli gəlir. Yəni Allah dərgahında insan o qədər müqəddəsdir ki, ən ləyaqətli bəndələrini - peyğəmbərlərini onun uğrunda qurban verir. Doğrudur, ilk baxışda peyğəmbərlərin din uğrunda əzaba qatlaşdığını görürük. Lakin azacıq diqqət yetirdikdə dinin insanlar üçün göndərildiyini, peyğəmbərlərin də insanların hidayət edilməsi istiqamətində işkəncələrə məruz qaldığını müşahidə edirik. Əgər Allah insanın hidayət - doğru yola yönəlməsindən ötrü hətta üluləzm peyğəmbərlərini qurban verirsə, şübhəsiz eyni məqsədlə insanın özünü də tənbih edə bilər. Ona görə də dinin hər hansı prinsiplərinə, hökmlərinə hidayət baxışı ilə baxılmalıdır. Belə bir halda bir çox tərəddüdlər imana çevirə bilir.

İnsanı ən yaxşı tanıyan Allahdır. Onun haçan müti və haçan üsyankar olduğunu bilir. Yəni insanın psixologiyası Allaha tam aydındır. Ona görə də yalnız müjdlərlə onun emosiyalarını təhrik etmir, paralel olaraq inzarla - hədələrlə onu kontrol etməyə çalışır. İnsanın yaradılmasında əsas məqsəd onun doğru yola yönəldilməsi olduğundan Allah-taala bəzən ən sərt hədələrlə onun uçruma getməsinin qarşısını almağa çalışır. Həkim xəstəyə xoş olmasa da xəstənin həyatını xilas etməkdən ötrü onun üzərində ən ağır cərrahiyə əməliyyatı aparmağa, ayağını-əlini kəsməyə məcbur olur.

İslam dinində insan varlıqların ən şərəflisi, yer üzündə Allahın canişini kimi təqdim edilir. Ümumiyyətlə, Allah-




taala yer üzündə hər bir şeyin insan üçün yaratdığını bəyan edir (Bəqərə, 29). Bu, insana ən humanist yanaşmadır. Lakin Allah sevimli bəndəsinin bu "hər şey"in içində itib-batmasını istəmir. Dəniz, dağ insan üçün yaradılıb, amma Allah insanın özünü dənizə atıb boğmasına, dağdan yuvarlanaraq özünə qəsd etməsinə icazə vermir.

Azadlıq insanın ən müqəddəs hüququdur. Lakin azadlıq insana xəyanət olunarkən yox, xidmət edərkən dəyər tapır. İnsan yaradılış baxımdan azaddır, istədiyi addımı ata bilər. Lakin İslam ona hər addımı atmağa icazə vermir. İnsan ixtiyarı ilə zəhər içə bilər, lakin din onu zəhər içməməyə məcbur edir.

Deməк İslamda insana verilən hüquq onun hidayəti çərçivəsindədir. Bunun xaricində olan heç bir hüquqdan söz gedə bilməz. Ümumiyyətlə insanın hidayətinə qarşı olan hər hansı bir addım qanun yox, cinayət hesab edilməlidir.

Həmçinin, hansısa bir qanun qəbul edilərkən həm də insanın mənəvi qatı da nəzərə alınmalıdır. Mənəviyyat insanın şən və azad yaşaması üçün çox zəruri bir amildir. Bu arada çox dartışdırılan hicab məsələsinə baxaq. Hicab bəzilərinin düşüncəsinin əksi olaraq qadına azadlıq verir, ona hüquqlarından istifadə etməyə imkan yaradır. Həm də hicab qadının ifrat şəhvani meyillərini kontrol edərək onu mənəvi səmtə yönəldir. Açıq-saçıqlıq isə qadını daha çox nəfsinə tabe etdirib düşüncə, təfəkkür

tərzini, mənəviyyatını sarsıdır.

Yaxud edam məsələsinə nəzər salaq. Dində bu hökmün icra edilməsi zahirən bəzilərini narahat edir. Lakin bunun fərqinə varmırlar ki, onların silah istehsal edən zavodları əslində dar ağacı istehsal edir.

Əvvəldə qeyd etdiyimiz kimi İslam dinində İNSAN müqəddəsidr. Lakin bütün insanlıq hisslərini itirmiş, şəfqətsiz ikiayaqlı insan sayıla bilməz. Qurani-Kərim belələrini insan saymır, hətta onları heyvandan aşağı hesab edir. Misal olaraq, onlarla azyaşlı uşağa, qıza



təcavüz edən, ailələri ləkələyən, kobudcasına ictimai asayişi pozan, uyuşdurucu maddələr paylayaraq milyonlarla gəncin həyatına son qoyan bir şəxsi cəzalandırmaq, pis əqidəli digər şəxslərə ibrət olsun deyə onu gur bir yerdə edam etmək insan hüququna ziddirmi?

Əgər qeyd edilən cinayətləri törədən şəxsi cəzalandırmaq insan hüquqlarını pozmaqdırsa, bir şəxsin cinayətinə görə bütöv bir ölkəni bombardman etmək, milyonlarla isanı (Əfqanıstan, İraq kimi) vəhşicəsinə qətlə yetirmək nə adlanır? Milyonlarla insanı (məzlum Qəzzə əhalisi kimi) illərlə ən ilkin hüquqardan məhrum edilməsinə nə ad verilməlidir?

İnsan hüquqlarından dəm vuran hegemon ölkələrdə inşa edilən silah zavodları insanlığa yönəlməmişdirmi? O silahların hər biri bir dar ağacı deyilmi? Quantanamo, Əbu-Qureyb kimi insanlığa zidd həbsxanalar və həmin həbsxanalarda ən ağır işkəncələr hansı dəyərlərə sığır?

Niyam Aqil



# Dini zəmanəyə uyğunlaşdırmaq olarmı?

**Bəzən belə bir sual verirlər: "Dini zəmanəyə uyğunlaşdırmaq olarmı? Cavab müsbət olduğu təqdirdə İslamın sabit qayda-qanunlarıyla dinamik surətdə inkişaf edən, haldan-hala düşən dünyanı idarə etmək olarmı."**

Bəli, dini zəmanəyə tətbiq etmək mümkündür. Və bu dünyanı da müqəddəs islam qayda-qanularıyla idarə etmək mümkündür. İslam dini sonuncu səmavi din olduğu üçün qiyamətədək insanların bütün maddi və mənəvi ehtiyaclarına cavab vermək iqtidarındadır. Elə bir problem, sual yoxdur ki, islamın o barədə cavabı olmasın və çıxış yolu göstərməsin. İslamın gəlişindən də məqsəd məhz budur ki, bəşəriyyətə əbədi xoşbəxtlik yolunu göstərsin. Bəşəriyyətin əbədi xoşbəxtliyini təmin edən din insanların bütün ehtiyaclarına cavabdeh olmalıdır. İnsanın ehtiyaclarına nəzər salıb diqqət etdikdə insanın ehtiyaclarının iki növ olduğu görünür.

Birinci növ, ilkin və bəşəriyyətin cismani, ruhani quruluşundan və ictimai yaşayış tərzindən irəli gəlmiş ehtiyaclardır. Nə qədər ki, insan insandır və yaşayışı zatən ictimai yaşayışdır, bu növ ehtiyaclar da olmalıdır. Cismani ehtiyaclar: yeyib-içmək, istirahət etmək; Ruhi ehtiyaclar: elm, gözəllik, sitayiş, tərbiyə; İctimai ehtiyaclar: ədalət, azadlıq, bərabərlik, ailə qurmaq və s. kimi ehtiyaclardır. İnsan dünyaya gələn gündən bu kimi ehtiyaclar onunla olub, həqiqətdə onunla birlikdə dünyaya qədəm qoyublar. Və nə qədər ki, dünyada insan var bu qisim ehtiyaclar onun kənarında sabit, daimi olaraq qalacaq.

İkinci növ ehtiyaclar isə həqiqətdə bəşəriyyətin özü xəlq etdiyi zaman, mühit, ictimadan irəli gələn ehtiyaclardır. İnsanın qanuna olan ehtiyacı kimi. Sözsüz ki, bu qisim ehtiyaclara cavab verə biləcək qayda-qanunlarda zaman-mühit nəzərə alınmalı və hər bir zəmanənin, mühitin özünə uyğun qanun qəbul olunmalıdır.

Bəşəriyyətin təkamülünü nəzərə alaraq insanların bu qisim ehtiyaclarını qeyri-sabit olduğundan qeyri-sabit qayda-qanun tələb olunur. Bu kiçik müqəddimədən sonra sualın cavabına nəzərinizi cəlb edirik.

Müqəddəs İslam dininin hökmləri iki qisimdir: sabit və qeyri-sabit. İnsanın qeyd olunan sabit ehtiyaclarına aid olan qayda-qanunlar İslam dinində sabit əbədi olaraq dəyişilməz qayda-qanunlardır. Çünki bu baxımdan 20-21-ci əsrin insanlarıyla min dörd yüz il bundan əvvəlki insanlar arasında heç bir fərq yoxdur. Amma insanların ikinci növ olan qeyri-sabit ehtiyaclarına gəldikdə isə müqəddəs islam dini onlar üçün sabit çərçivələr, ana xətlər təyin etmişdir ki, hər bir yeni hadisə yeni zəmanədə təyin edilmiş çərçivədə öz həllini tapmalı və zəmanəyə uyğun hökmü verilməlidir. Məsələ daha aydın olsun deyə bu misala diqqət edin.

İslam düşmən nüfuzunun qarşısını alaraq ərazi bütövlüyünü qorumaq üçün xüsusi göstəriş verməyib. Gərək mövcud olan vəziyyəti, zəmanəni nəzərə alaraq zəmanəyə uyğun tədbir görülməlidir. Bu baxımdan Qurani-Kərimdə müsəlmanlar üçün bu zəmində ana xətt çəkərək çərçivəni müəyyən etmişdir. "Ənfal" surəsinin 60-cı ayəsində buyurur: "Gücünüz çata biləcək həddə düşmənlərin müqabilində güclü olmağa hazırlaşın".

Əgər bu ayənin təfsirində at çapmaq, ox atmaq tövsiyə olunubsa, səbəbi budur ki, o zamanlarda at çapmaq, ox atmaq hərbi xidmətlərdən hesab olunurdu. İslam baxımında hədəf ata minib ox atmaq deyil. Hədəf budur ki, müsəlmanlar öz zəmanələrinə uyğun düşmən müqabilində son mümkün həddədək güclü olmalıdırlar. (Əlbəttə bunu da nəzərdən qaçırmayaq ki, qeyri-sabit hökmləri sabit hökmlərdən istinbat (çıxarış) etmək səlahiyyəti yalnız ali dini orqanların ixtiyarındadır. Başqa şəxslərin bu sahədə nəzər verməyə haqları yoxdur.)

İlham Əliyev

# PANDEMİYA

## YOLUXUCU XƏSTƏLİKLƏR MÖVZUSU DİNİ MƏNBƏLƏRDƏ

**Müalicəyə başla və Allaha təvəkkül et**

İslamın gəlişi ilə yüksək səviyyədə inkişaf etmiş elm sahələrindən biri də tibbdir. Orta əsrlərdə müsəlman alimləri tibb elminə ən böyük töhfələri vermişlər. Qərb dünyası əsrlər boyunca müsəlmanların tibbi biliklərini öyrənmiş, mənimsəmiş, bunun əsasında öz nəzəriyyələrini qurmuşdur. Tibb elminə qarşı bu diqqət məsumlardan başlayan bir ənənədir. İslam Peyğəmbərinin (s) və imamların (ə) hədisləri içində tibb ilə bağlı təlimatlar çoxdur. Bu da təsadüfi deyil. İslam dinində ən dəyərli məfhum insan həyatıdır. Dinimizə görə, insanlığı qorumaq, bəşəriyyəti həm maddi, həm də mənəvi tərəqqiyə yönəltmək ən ali hədəflərdən biridir. Məsumlarımız həmişə müsəlmanları öz sağlamlıqlarını qorumağa, başqalarının həyat və sağlamlığına diqqətli yanaşmağa, xəstəliklərlə mübarizə aparmağa, xəstəlik qarşısında Allaha təvəkkül etməklə və səbirli olmaqla yanaşı, tibbi vasitələrdən də istifadə etməyə çağırmışlar.

İmam Cəfər Sadiqdən (ə) rəvayət olunur ki, peyğəmbərlərdən biri xəstələndiyi zaman müalicə almaqdan imtina etmiş və demişdi: "Mən dərman qəbul etməyəcəyəm. Qoy məni xəstələndirən (yəni Allah) məni sağaltsın". Bu zaman Allahdan ona nida gəldi: "Sən müalicə olunmayınca, Mən sənə şəfa verməräm. Həqiqətən, şəfa Məndəndir" (Əllamə Məclisi. Bihar əl-ənvar, 62-ci cild, səh. 66). Hədisdən məlum olur ki, insan nə qədər Allaha təvəkkül etsə belə, ağıl və məntiqin tələb etdiyi əlac yollarından boyun qaçırmamalıdır. Xəstəliyə tutulan şəxs tibbi üsulla müalicə olunmalıdır, çünki xəstəliyin tibbi yolla sağalması Allah-Taalanın Özü tərəfindən təsbit edilmiş bir qanundur. Yalnız tibbi müalicəni apardıqdan sonra, onun fayda verməsi üçün Allaha təvəkkül etmək lazımdır. Necə deyərlər, "dəvənin ayağını bağla, sonra Allaha təvəkkül et". İmam Sadiqdən (ə) bəzi şəxslərə dərmanın fayda verdiyi, bəzilərinə isə fayda vermədiyi və xəstəlikdən öldüyü barədə soruşulduqda, həzrət buyurmuşdu: "Allah dərd də endirir, dərman da. Allah elə bir dərd yaratmayıb ki, onun dərmanını da yaratmamış olsun. Sən dərmanı iç və Allahın adını çək".

Allahın Rəsulu (s) buyurmuşdur: "Allah dərd də göndərib, dərman da, hər dərd üçün dərman yaradıb. Müalicə olunun, amma haramla (haram vasitələrlə) müalicə olunmayın!" (Bihar əl-ənvar, 62-ci cild, səh. 76).

Peyğəmbərimizə (s) aid edilən məşhur hədislərin birində buyurulur: "(Xəstələndikdə) müalicə olunun (dərman için); çünki Allah elə bir xəstəlik nazil etməz ki, ondan ötrü şəfanı da nazil etməmiş olsun" (Bihar əl-ənvar, 62-ci cild, səh. 66). Əhlisünnə mənbələrində (Sünəni-Nəsai, Müstədrək əl-Səhiheyn, Müsənnəf) bu hədisin sonunda "yalnız ölümdən başqa; onun dərmanı yoxdur" əlavəsi mövcuddur. Hədisin bəzi variantlarında



isə "qocalıqdan savayı" ifadəsinə rast gəlirik.

Müqəddəs Kitabımızda buyurulur: "Öz əlinizlə özünüzü təhlükəyə atmayın!" (Bəqərə, 195). Özünü qəsdən ağır xəstəliyə məruz qoymaq da həyat üçün böyük təhlükədir. Buna görə də, ağır keçici xəstəlikdən qorunmaq mümkün olduğu halda bunu etməmək, səhlənkar davranmaq Allahın hökmünü qulaqardına vurmaq deməkdir və günahdır.

**Böyük epidemiyalar**

Dini mətnlərimizdə əsasən, taun, vəba və cüzam kimi yoluxucu xəstəliklərin adı çəkilir. Hədislərin içində taunla bağlı olanlar üstünlük təşkil edir.

Tarixdə ilk nəhəng taun epidemiyası miladi VI əsrdə baş vermişdir. Afrikada başlayan, o zamankı məlum dünyanın demək olar ki, hər nöqtəsinə yayılan xəstəlik zamanı təkcə Bizans imperiyasını paytaxtı Konstantinopolda ölənlərin gündəlik sayı 5 min nəfəri keçirdi. Mənbələr bu xəstəlikdən ölənlərin sayını 25-100 milyon nəfər arası göstərir. Nəzərə alaq ki, VI əsrdə ümumilikdə dünya əhalisinin sayı 200-300 milyon nəfər arası qəbul edilir.

XII-XIII əsrlərdə taun xəstəliyi Çin, Hindistan, Yaxın Şərq, Misir də daxil olmaqla böyük ərazini bürüdü. Təkcə Misirdə bir milyon insan qırıldı.

Növbəti böyük taun epidemiyası "qara ölüm" adı ilə tanınır. XIV əsrin ortalarında baş vermiş bu xəstəliyi dəhşətli edən səbəblərdən biri də bu idi ki, ondan qabaq uzun müddət boyunca davam etmiş quraqlıq nəticəsində qida ehtiyatı tükənmiş və insanların immun sistemi zəifləmişdi. Üstəlik, Avropa bundan az əvvəl cüzam və çiçək epidemiyalarını adlamışdı. "Qara ölüm" qısa müddət ərzində Avropanı və Yaxın Şərqi öz caynaqlarına aldı. Bəzi iri şəhərlər əhalinin 50-80 faizini itirdi. Ümumilikdə Avropa əhalisinin üçdə-biri taunun qurbanı oldu. Bəzi mənbələr 60 milyon insan ölümündən xəbər verir.

Sonrakı əsrlərdə də taun xəstəliyi bəzən lokal, bəzən də qlobal miqyasda əraziləri əhatə etmişdir. Məsələn, taun XVII əsrdə

Rusiyada 700 min adamın həyatına son qoydu.

XIX əsrin ortalarında başlamış üçüncü taun epidemiyası da getdikcə bütün qitələrə yayıldı. Təkcə Çin və Hindistan bu epidemiyada 12 milyon nəfər itirdi.

## Yoluxucu xəstəliklər barədə hədislər

Taun və digər yoluxucu xəstəliklər barədə məsumların buyurduqları hədislər fərqli mövzuları əhatə edir. Hədislərin bir qismində bu xəstəliklərdən qorunma üsulları qeyd edilir, bəzi hədislərdə isə xəstəlik qurbanlarının şəhid qədər savab qazandıqları bildirilir.

Həzrət Mühəmməd Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Taun bir əzab idi və Allah-Taala onu öz istədiyinə (seçdiyinə) göndərirdi. Allah onu möminlər üçün rəhmət (mərhəmət) etdi. Əgər taun gələndə bir şəxs öz şəhərində qalsa, Allaha xatir səbir etsə və Allahın yazısından (qəzavü-qədərindən) savayı başına heç nə gəlməyəcəyinə inansa, şəhid qədər savab qazanar" (Müttəqi Hindi. Kənz əl-ümmal, 10-cu cild, səh. 77).

Eyni kitabda Ənəs ibn Malikin Peyğəmbərdən (s) bu hədisi eşitdiyi yazılıb: "Taun hər bir müsəlman üçün şəhidlikdir".

Səhihi-Buxarinin "Tibb" kitabında taunla bağlı babda yazılıb ki, Ənəs ibn Malik məşhur alim İbn Sirinin oğlu Yəhyanın taun xəstəliyindən vəfat etdiyini eşitdikdə, Peyğəmbərin (s) bu hədisini söyləmişdi: "Taun (bu xəstəlikdən ölən) hər kəs üçün şəhidlikdir".

## Əzab yoxsa rəhmət?

Taun qəbilindən olan yoluxucu xəstəliklərin hansı səbəbdən insanlara göndərildiyini dəqiq söyləmək çətindir. Bəzən bu xəstəlik əzab, bəzən isə sınaq kimi endirilir. Birinci halda cəza, ikinci halda isə mərhəmət sayıla bilər.

İmam Əli (ə) taun xəstəliyini "sürətli ölüm" adlandırmışdır (Bihar əl-ənvar, 6-cı cild, səh. 121).

İmam Zeynülabidindən (ə) soruşdular ki, taun xəstəliyinə tutulmuş adamdan, əzaba düçar olmuş şəxs kimi qaçıb uzaqlaşmalıyıqmı? İmam cavab verdi: "Əgər o adam günah əhlidirsə, tauna yoluxsa da yoluxmasa da, ondan uzaq olun. Əgər itaət əhlidirsə, taun vasitəsilə günahlarından pozular. Allah taun vasitəsilə bir topluma əzab verər, başqa topluma isə rəhm edər". Daha sonra İmam (ə) günəşi misal çəkir. Allah bu dünyada günəş istiliyi vasitəsilə insanları soyuqdan qoruyur, meyvələri yetişdirir. Axirətdə isə istilik vasitəsilə günahkarlara əzab verəcək (Bihar əl-ənvar, 75-ci cild, səh. 16).

## Bir ayənin təfsiri

Bəzi təfsirçilərin fikrincə, Bəqərə surəsinin 243-cü ayəsində haqqında danışılan, öldürülən və sonra dirildilən insanlar taun xəstəliyindən qaçanlar olmuşdur. Ayədə buyurulur: "Minlərlə adamın (taundan) ölüm qorxusu ilə öz yurdlarını tərk edib getdiklərini görmədinmi? Allah onlara: "Ölün!" – dedi və sonra da (yenidən) diriltdi. Həqiqətən, Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükür etməzlər!" (Bəqərə, 243).

Təfsirə əsasən, keçmiş zamanlarda Şam vilayətində bir şəhərə taun xəstəliyi düşdü. Varlılar taundan xilas olmaq üçün şəhərdən çıxıb qaçdılar, kasıbların isə heç yerə getməyə imkanı olmadı. Allah elə etdi ki, şəhərdə qalanlar xəstəlikdən xilas oldular, qaçıb gedənlər isə ölümün caynağına keçdilər. Bu hadisədən uzun müddət sonra həmin yerdən keçən Hezqil Peyğəmbər (s) ölülərin çürümüş sümüklərini görüb təəccübləndi. Allahın əmri ilə ölülər yenidən həyata qayıdıb dirildilər (Bihar əl-ənvar, 6-cı cild, səh. 122-123).

## Xəstəliyin yoluxmasına imkan vermək olmaz

İmam Sadiq (ə) cüzam xəstəliyinə tutulmuş şəxslə bir dirsək məsafədən artıq uzaq durmağı tövsiyə edir, başqa bir hədisdə isə cüzamlı xəstədən, aslandan qaçırmış kimi qaçmağı tapşırırdı (Şeyx Səduq. Mən la yəhzuruh əl-fəqih, 4-cü cild, səh. 357).

Səhihi-Müslimdə və digər mənbələrdə yazılıb ki, Peyğəmbər buyurmuşdur: "Xəstəni sağlamlara qatmayın". Bu hədis həm sağlam insanlara, həm də heyvanlara şamil edilə bilər. Belə ki, bəzi tədqiqatçıların fikrincə, burada xəstə dəvəni sağlam dəvə sürüsünə qatmamaq nəzərdə tutulub.

Yoluxucu xəstəliklər zamanı özünütəcrid (karantin) qaydalarına riayət etmək və xəstəliyin mərkəzini (ocağını) qapatmaq barədə tövsiyələrə Allahın Rəsulunun (s) hədislərində rast gəlirik. Peyğəmbərimiz (s) 1400 il bundan əvvəl göstəriş vermişdi ki, taun, vəba kimi yoluxucu xəstəliklər yayıldığı zaman hər kəs öz yaşadığı məkanda qalmalıdır. Belə ki, xəstəliyin yayıldığı şəhərin əhalisi oradan kənara çıxmamalı, kənar yerlərin əhalisi isə həmin şəhərə gəlməməlidir. Bu, xəstəliyin yarandığı məkanda qapanmasına, oradan kənara çıxmamasına xidmət edən bir tədbirdir və böyük itkilərin qarşısını alır. Müasir dillə desək, Peyğəmbər (s) yoluxucu xəstəliyin yayıldığı şəhərləri "qapalı şəhər" elan etmişdi.

## Tarixdən bir misal

Ömər ibn Xəttab Şamın fəthindən sonra Qüdsün açarlarını şəxsən təhvil almaq məqsədi ilə 637-ci ildə Mədinədən çıxıb Şama gəldi. Yərmuk yaxınlığına çatdıqda Şamdakı müsəlman qoşunun komandanı Əbu Übeydə ibn Cərrah onu qarşıladı və Şamda vəba xəstəliyinin tüğyan etdiyini xəbər verdi. Xəlifə və onunla gələnlər yola davam etmək ya geri qayıtmaq barədə düşünməyə başladılar.

Ömər əvvəlcə onu müşayiət edən mühacirləri çağırıb onlardan məsləhət istədi. Mühacirlərin bir hissəsi xəstəlikdən qorunmaq üçün geri qayıtmağı məsləhət gördü, bir hissəsi isə "xəlifəyə yaraşmaz ki, yolundan dönsün" söylədi.

Ömər ənsardan olanlarla görüşüb onların fikrini soruşdu. Ənsarın da arasında fikir ayrılığı yarandı.

Ömər bu dəfə Qüreyş böyüklərindən məsləhət almaq qərarına gəldi. Qüreyş tayfasının ağsaqqalları yekdilliklə dedilər ki, insanları təhlükəyə salmaq olmaz və geri dönmək lazımdır. Ömər onların məsləhətinə əməl edib, ertəsi gün geri qayıtmaq əmrini verdi. Səhihi-Buxarida yazılıb ki, xəstəliyin yayıldığı şəhərə giriş-çıxışın qadağan olması barədə Peyğəmbərin (s) hədisini də həmin hadisə zamanı Ömərə sübut kimi gətirmişdilər.

Ixlas.az

# İSLAMDA YETİMLƏRƏ XİDMƏT



**İslam maarifində yetimlər ehsan ünvanlarından biridir. Yetimlərə xidmət edərkən onlardan gələcəkdə əvəz almaq məqsədi güdülməməli, onların gələcək iqtisadi durumunu nəzərə almadan onların ehtiyacları aradan qaldırılmalıdır. Maddi ehtiyac yetimin ehtiyaclarından yalnız biridir. Bəzən yetimin mal-mülkü olur, amma yaşı az olduğundan öhdəsindəkilərdən düzgün istifadə edə bilmir. Əgər belə məqamda yetim özbaşına qalsa və yalnız ona qalmış sərmayəsini xərcləsə, miskin vəziyyətə düşər. Həmin sərmayəni işə salmaq, hətta artırmaq lazımdır. Sərmayədən gələn gəlirlə onun gündəlik ehtiyacları ödənməlidir.**

Amma iş bununla başa çatmır. İnsanın ehtiyacı təkcə yemək deyil. Onun yeməkdən də mühüm ehtiyacları var. Yetim, əsasən nəvazişə ehtiyac duyur. Ata-anasından birini və ya hər ikisini itirmiş uşaq məhəbbət təşnəsidir. Ata-ana məhəbbətindən məhrum olmuş körpə məhəbbətə olan ehtiyacını necə ödəməlidir? Təbii ki, mən, siz və başqaları onu himayəyə alıb doğma övlad kimi nəvaziş göstərməliyik. İslam nəzərincə, yetimlərə münasibətdə vəzifələr daha əhatəlidir. Biz yetimlərlə elə rəftar etməliyik ki, onların məhəbbətə olan ehtiyacı imkan həddində ödənsin. Onun başqa ehtiyaclarına da diqqət yetirilməlidir. Uşaq düzgün təlim-tərbiyə almalı, ona İslam təlimləri öyrədilməlidir. Cəmiyyətdəki adət-ənənələrlə tanışlıq, əqli təkamül, qazanc yollarından və müxtəlif peşələrdən məlumatlılıq, elmi biliklər yetimlərin zəruri ehtiyaclarındandır və bu ehtiyaclara yetərincə diqqət göstərilməlidir. İmam Əli (ə) ömrünün sonundakı vəsiyyətində yetimlərin ehtiyaclarının aradan qaldırılmasından, onlara nəvaziş göstərilməsindən və təlim-tərbiyədən danışaraq buyurmuşdur:

“Yetimlərə münasibətdə Allahı, Allahı unutmayın; ağızları üçün növbə saxlamayın və hüzurunuzda sıxıntı keçirməsinlər.” (“Tuhəful-uqul”, c.2, səh.197;“)

Mühüm nöqtə budur ki, yetimlərə olunan yardımlar arabir unudulduqda və ya kəsildikdə, körpələr sıxıntıda qala bilər. İmam Əli (ə) bu nöqtəni nəzərə çatdırır. Həzrət “ağızları üçün növbə saxlamayın” tapşırarkən, nəzərdə tutur ki, onlara bir gün yardım göstərib, bir gün yaddan çıxarmaq olmaz. Onlara ardıcıl və vaxtında əl tutulmalıdır. İnsanlar fərdi və ya qrup şəklində yetimləri qidalandırmalı, onları bu sahədə çətinlik çəkməyə qoymamalıdırlar.

Amma qeyd olunduğu kimi, təkcə maddi ehtiyacları aradan qaldırmaq bəs etmir. Təlim-tərbiyə də mühüm ehtiyaclardandır. İmam Əlinin (ə) buyruqlarından birində oxuyuruq:

“Yetimə onun ehtiyaclarını aradan qaldıranadək himayə göstərən kəsə Allah Behişti vacib edir. Necə ki, yetimin malını yeyənə Cəhənnəmi vacib etmişdir.” (“Tuhəful-uqul”, c.2, səh.197; “Biharul-ənvar”, c.42, səh.248, hədis 51, bab 127.)

“Hətta yəstəğniyə” dedikdə, yetim uşaq öz ayağı üstə dayana bilənədək, öz işlərini idarə etməyi bacaranadək mənası anlaşılır. Yetim ehtiyacsızlığın bu həddinə çatdığı vaxt onun bütün maddi və mənəvi ehtiyacları ödənir. Hədisə əsasən, yetim müstəqil həyata başlayanadək ona himayə göstərən insana Allah Behişti vacib edir. Əksinə, yetimin malına xəyanət edəni Cəhənnəm odu gözləyir. İnsanın yetim bir uşağa öz övladı kimi qayğı göstərməsi ondan böyük fədakarlıq tələb edir. Sahibsiz uşağın mal-mülkünü min yolla ələ keçirmək üçün isə insanda xüsusi bir alçaqlıq, xəbislik olmalıdır. Bu səbəbdən də Allah birincilərə Behişt, ikincilərə Cəhənnəm vəd edir. Bir hədisdə Peyğəmbər (s) yetimlərə diqqət haqqında belə buyurur:

“Mən və yetimin qəyyumu Behiştdə bu iki (barmaq) kimiyik.” (Həzrət iki barmağını yanaşı tutub ona işarə etdi.) (“Biharul-ənvar”, c.35, səh.117, hədis 58, bab 3.)

Həzrət bu işarə ilə bildirir ki, yetimə qəyyumluq göstərən kəs bu iki barmaq yaxın olduğu kimi, Behiştdə Peyğəmbərlə (s) yaxın olacaqdır. Hədisə əsasən, yetimə qayğı göstərmək o qədər mühüm işdir ki, bu əməlin sahibi Behiştdə Peyğəmbərə (s) yaxın olacaqdır. Adi bir şəxsin kainatın şərəflisi ilə yaxın olması diqqəti cəlb edəcək bir mövzudur. İnsanın Peyğəmbərin (s) xidmətində olub, onun faydalandığı nemətlərdən faydalanması kiçik məqam deyil. İstənilən bir halda, yetimə qəyyumluq Peyğəmbər (s) tərəfindən böyük fəzilət sayılır və bələlərinə zəmanət verilir. (“Peyame-Movla əz bəstəre-şəhadət” (Şəhadət yatağında Mövlanın öyüdü), Ayətullah Misbah Yəzdi, səh.163-174.)

Maide.az

# Şaban ayının fəziləti

## və müştərək əməlləri




### 1 Şəbaniyyə salavatı

Şaban ayında hər gün zöhr (günorta) vaxtı və həmcinin saban ayının gecəsi Məfatihul Cinanda qeyd edilən bu salavatı (şəcərətin nubuvəti və məvzi-ir risaləti...) oxumaq tövsiyə olunur.

### 2 Oruc tutmaq

Bu ayın ən mühüm əməllərindən biri oruc tutmaqdır. İmam Sadiq(ə) buyurub :
Hər kəs bu ayın ilk gününü oruc tutarsa, mütləq behişt əhlidir. Hər kəs iki gün oruc tutarsa, Allah ona gecə gündüz (rəhmət nəzəri ilə) ona nəzər salar və cənnətdə də bu rəhmət nəzəri davam edəcək. Hər kəs üç gün oruc tutarsa, Allah ilə behiştdə və onun ərşində görüşəcəkdir.

### 3 Min dəfə bu zikri demək

Bütün şaban ayı boyunca çoxlu savabı olan "La ilahə illəllah və la nəbudu ila iyyah muxlisinə ləhud-din və ləv kərihəl muşrikun" zikrinin min dəfə deyilməsi tövsiyə olunub.

### 4 İstiğfar zikri

Bu ayda hər gün yetmiş dəfə " Əstəğfirullahə və əsəluhut təvbə" zikrinin deyilməsi tövsiyə olunur. Həmçinin yaxşı olar ki, bu ayda çoxlu salavat deyilsin.

### 5 Sədəqə vermək

Bu ayda hətta bir xurmanın tumunun yarısı miqdarında da olsa belə sədəqə vermək yaxşıdır. Allah sədəqə verənin bədənini cəhənnəm oduna haram edər.

### 6 Şaban ayının məxsus namazı

Əlidən(ə) nəql edilən bir rəvayətdə buyurulur : Kimsə şaban ayının hər cümə axşamı iki rəkət namaz qılıb, hər rəkətdə fatihə surəsini bir, ixlas surəsini yüz dəfə oxuyarsa və namazın salamından sonra isə yüz dəfə salavat deyərsə Allah onun bütün dünyəvi və dini istəklərini yerinə yetirər. Kimsə bu ayda bir gün oruc tutarsa, Allah onun bədənini cəhənnəm oduna haram edər.

### 7 Şəbaniyyə münacatı

Bu münacat məşhur münacatdır və bir çoxları məhz buna görə şaban ayının gəlişinin intizarındadırlar. Yaxşı olar ki, bu münacat bütün şaban ayı boyunca oxunsun